## DSX Naxçıvanla Türkiyə arasında quru sərhədin bağlanmasına aydınlıq gətirib



**Dövlət Sərhəd Xidməti (DSX) Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyə arasında quru sərhədinin bağlanması barədə yayılan xəbərlərə münasibət bildirib.**

DSX-dən "Şərq"ə bildirilib ki, Dövlət Sərhəd Xidməti hazırda vətəndaşların sərhəd buraxılış məntəqələrində dövlət sərhədindən buraxılışı Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 20 iyun 2022-ci il tarixli 232 nömrəli qərarına uyğun olaraq həyata keçirir.

*Qeyd edək ki, bu gün sosial şəbəkələrdə Naxçıvan-Türkiyə quru sərhədinin vətəndaşlar üçün bağlanması ilə bağlı məlumat yayılıb.*



## Göygöldə avtomobil qəzasında 5 nəfər ölüb

**Göygöldə ağır yol-nəqliyyat hadisəsi baş verib.**

Hadisə Bakı-Qazax magistral yolunun rayon ərazisindən keçən hissəsində qeydə alınıb. Hərəkətdə olan "DAF" markalı yük avtomobili ilə "VAZ-2107" ilə toqquşub. Yük avtomobili ilə "VAZ-2107"nin toqquşması nəticəsində ölənlərin sayı 5 nəfərə çatıb. Bu barədə APA-nın hadisə yerində olan müxbiri xəbər verib.


❐ № 115 (5637), 2022-ci il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az | 2 iyul 2022-ci il (şənbə)





## Şuşa adından istifadə edilməsi ilə bağlı yeni qaydalar qüvvəyə minib

### Prezident İlham Əliyev bununla bağlı qanuna dəyişikliyi imzalayıb

**Şuşa şəhərinin adından istifadə edilməsi ilə bağlı yeni qaydalar qüvvəyə minib.**

Prezident İlham Əliyev bununla bağlı "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna dəyişikliyi imzalayıb.

Belə ki, Şuşa şəhərində "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun və digər normativ hüquqi aktlarla müəyyən edilən hüquqi tənzimləmə tətbiq edilir. Bu hüquqi tənzimləmə Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, memarlıq və şəhərsalma fəaliyyəti, reklam fəaliyyəti, habelə müxtəlif səviyyəli tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir. Bundan başqa, Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə "arxeoloji" sözü çıxarılıb.

(səh.2)




## ABŞ və Azərbaycan arasında münasibətlər inkişaf edir

### Örl Litzenberger: "Regionun üzləşdiyi problemlərin və çağırışların öhdəsindən gələ biləcəyik"

**ABŞ-ın Müstəqillik Günü münasibətilə Bakıda keçirilən tədbirdə bir çox rəsmiləri görməkdən çox məmnunam. Hesab edirəm ki, bu tədbir sayəsində dostlarımızla münasibətlərimizi daha da inkişaf etdirmək imkanımız olacaq.**

Bu sözləri ABŞ-ın Azərbaycandakı səfiri Örl Litzenberger ölkəsinin Müstəqillik Günü ilə əlaqədar Bakıda keçirilən rəsmi qəbuldan sonra jurnalistlərə açıqlamasında söyləyib.

"Ölkələrimiz arasında münasibətlər inkişaf edir. Bunu iki ölkənin yüksək rütbəli rəsmilərinin fəaliyyətləri də göstərir. Əminəm ki, bundan sonra da münasibətlərimizi inkişaf etdirəcək, həm Azərbaycanın, həm də regionun üzləşdiyi problemlərin və çağırışların öhdəsindən gələ biləcəyik", - deyə səfir qeyd edib.

## Ərdoğan ölkədə minimum əməkhaqqının artırıldığını bəyan edib



**Trükiyədə minimum əməkhaqqı artırılıb.**

**Trend xəbər verir ki, bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan özünün "Twitter" hesabında bildirib.**

"Minimum əməkhaqqı iyul ayından etibarən 30% aralıq artımla xalis 5500 TL olaraq tətbiq olunacaq. Bütün işçilərə xeyirli, uğurlu olsun", - deyə o qeyd edib.

# Türkiyə və Ermənistan quru sərhədlərini açır

### Xüsusi nümayəndələr Vyanada normallaşma prosesinə dair bəzi razılıqlara gəliblər



**Türkiyə və Ermənistan arasında Normallaşma Prosesi üzrə xüsusi nümayəndələrin - səfir Serdar Kılıç və Ermənistan parlamentinin sədr müavini Ruben Rubinyan arasında dördüncü görüş dünən Vyanada keçirilib.**

Türkiyənin Xarici İşlər Nazirliyi xəbər verir ki, tərəflər Türkiyə ilə Ermənistan arasında quru sərhədinin iki ölkəyə səfər edən üçüncü ölkə vətəndaşlarının keçməsi üçün ən qısa zamanda açılması barədə razılığa gəliblər və bununla bağlı lazımi prosesin başlanmasına qərar veriblər.

Onlar, həmçinin Türkiyə ilə Ermənistan arasında birbaşa hava yük ticarətinin mümkün qədər tez başlaması barədə razılığa gəliblər və bu məqsədlə lazımi prosesin başlanmasına qərar veriblər.

Tərəflər, həmçinin son məqsəd olan iki ölkə arasında tam normallaşmaya nail olmaq üçün atıla biləcək digər mümkün konkret addımları da müzakirə edib və normallaşma prosesinin ilkin şərt olmadan davam etdirilməsi ilə bağlı razılıqlarını bir daha vurğulayıblar.

## Azərbaycana 2-3 günə meymunçiçəyi testləri gətiriləcək

### Hələ ki, heç bir sərhəd-keçid məntəqəsində tədbirlərin görülməsi nəzərdə tutulmur




**"Ölkədə COVID-19-la bağlı epidemioloji vəziyyət tam nəzarətdədir və hər hansı bir sıçrayış olsa, müvafiq addımlar atılacaq".**

Bu sözləri jurnalistlərə açıqlamasında Səhiyyə naziri Teymur Musayev deyib. Nazirin sözlərinə görə, Azərbaycanda COVID-19-a qarşı vaksinasiya kampaniyası 2021-ci ilin yanvar ayının 18-dən başlanıb və uğurla həyata keçirilib: "Məqsəd qrupu 50 yaşından yuxarı olan insanlardı, demək olar ki, əsas ağırlaşmalar onlarda baş tutur.

(səh.2)



## Bakıda 50 yaşlı kişi burun əməliyyatı zamanı öldü

### Mərhum Biləsuvar rayonunun Amankənd kəndində dəfn olunub

**Bakıda xəstəxanalardan birində xəstə əməliyyat masasında dünyasını dəyişib.**

Əslən Biləsuvar rayonundan olan, Bakı şəhərində yaşayan 50 yaşlı Əhməd Kazımov burun əməliyyatı zamanı vəfat edib.

Mərhum Biləsuvar rayonunun Amankənd kəndində dəfn olunub.

Qohumlarının iddiasına görə, Ə.Kazımov həkim səhlənkarlığı nəticəsində vəfat edib.

Faktla bağlı araşdırma aparılır.

## Vəfat edən olmayıb

### 29 nəfər koronavirusa yoluxub




**Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 29 yeni yoluxma faktı qeydə alınıb, 15 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan "Şərq"ə verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış şəxslərdən vəfat edən olmayıb.

*Azərbaycanda indiyədək ümumilikdə 793 302 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 783 383 nəfər müalicə olunaraq sağalıb, 9 717 nəfər vəfat edib, aktiv xəstə sayı 202 nəfərdir.*

## Xaçmazda 23 yaşlı oğlan dənizdə batıb



**Xaçmazda 23 yaşlı oğlan dənizdə batıb. Bu barədə Fövqəladə Hallar Nazirliyindən (FHN) məlumat verilib.**

Belə ki, FHN-in Böhran Vəziyyətlərində İdarəetmə Mərkəzinə Xaçmaz rayonunun Niyazoba kəndində, dənizdə (ən yaxın sularda xilasetmə məntəqəsindən təqribən 3 km aralı, nəzarətsiz ərazi) 1999-cu il təvəllüdlü Aydəmirov Famil Habil oğlunun batması barədə məlumat daxil olub. FHN-nin Kiçikhəcmli Gəmilərə Nəzarət və Sularda Xilasetmə Dövlət Xidmətinin dalğıc-axtarış qrupu axtarışlara cəlb olunub.



## İran Azərbaycanla körpü tikəcək

Xudafərinin birgə bərpası hər iki ölkənin iqtisadi maraqlarına uyğundur

(səh.4)



## Hər kəs korrupsiyanın oğurluq olduğunu dərk etməlidir

Əliməmməd Nuriyev: "İnandırım sizi ki, həbs olunan şəxslər vətəndaşların haqqını yeyən insanların yüzdən biridir"

(səh.6)




# Şuşa adından istifadə edilməsi ilə bağlı yeni qaydalar qüvvəyə minib

## Prezident İlham Əliyev bununla bağlı qanuna dəyişikliyi imzalayıb

**Şuşa şəhərinin adından istifadə edilməsi ilə bağlı yeni qaydalar qüvvəyə minib.**

**Prezident İlham Əliyev bununla bağlı "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanuna dəyişikliyi imzalayıb.**

Belə ki, Şuşa şəhərində "Azərbaycanın mədəniyyət paytaxtı - Şuşa şəhəri haqqında" qanun və digər normativ hüquqi aktlarla müəyyən edilən hüquqi tənzimləmə tətbiq edilir. Bu hüquqi tənzimləmə Şuşa şəhərinin ərazisində abidələrin bərpası, qorunması, öyrənilməsi, memarlıq və şəhərsalma fəaliyyəti, reklam fəaliyyəti, habelə müxtəlif səviyyəli tədbirlərin keçirilməsi və digər sahələri əhatə edir. Bundan başqa, Şuşa şəhərində mövcud abidələrin tam həcmdə qorunması məqsədilə "arxeoloji" sözü çıxarılıb.

Eyni zamanda "Şuşa" adından istifadə etmək üçün xüsusi qaydaların tətbiq edilməsi məqsədilə yeni maddə əlavə edilib. Yeni maddədə nəzərdə tutulan hallarla bağlı Şuşa Şəhəri Dövlət Qoruğu öz adından və rəsmi "Şuşa" adından istifadə etməkdə müstəsna hüquqa malikdir. Əlavəyə əsasən, hüquqi şəxslərin, o cümlədən media subyektlərinin adlarında, mükafatların və təltiflərin adlarında, yerli, ölkə və ya beynəlxalq səviyyəli tədbirlərin, o cümlədən idman və digər yarışların, konsertlərin, festivalların, sərgilərin, konfransların, seminarların adlarında, kommersiya və reklam məqsədilə əmtəə nişanlarında və coğrafi göstəricilərdə "Şuşa" sözündən istifadəyə yalnız müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi qurumun razılığı ilə yol verilir.

# Ceyhun Bayramov İordaniya Senatının sədri ilə görüşüb

**Dünən xarici işlər naziri Ceyhun Bayramov İordaniya Haşimilər Krallığı Ümmət Məclisinin (Parlament) Senatının sədri Feysəl Əl-Fayez ilə görüşüb.**



Xarici İşlər Nazirliyindən "Şərq"ə verilən məlumata görə, nazir Ceyhun Bayramov Senatın sədrini səmimiyyətlə salamlayıb və onun Qoşulmama Hərəkatı (QH) Parlament Şəbəkəsinin Bakı konfransında şəxsən iştirakının həm tədbirin işinə, həm də ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyini bildirib. Nazir, Azərbaycanın İordaniya ilə ikitərəfli və çoxtərəfli platformalarda, o cümlədən İƏT və QH çərçivəsində əməkdaşlığını məmnunluqla vurğulayıb.

Gələn il ölkələrimiz arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyinin qeyd ediləcəyi və bu münasibətlə tədbirlərin təşkilinin əhəmiyyəti səsləndirilib.

Senatın sədri Feysəl Əl-Fayez Azərbaycan ilə əlaqələrin inkişafında maraqlı olduqlarını və bu xüsusda ikitərəfli səfərlərin intensivləşməsinin əhəmiyyət kəsb etdiyini bildirib. O, Azərbaycanın QH sədrliyi çərçivəsində fəal rolunu, irəli sürülən təşəbbüslərin təqdirəlayiq olduğunu qeyd edib. Sədr, hazırda dünyada cərəyan edən bir sıra narahatlıq doğuran hadisələr fonunda Qoşulmama Hərəkatının dünya müstəvisində rolunun artırılmasına ehtiyacın olduğunu vurğulayıb.

Görüşdə, həmçinin regional vəziyyət, habelə qlobal əhəmiyyət kəsb edən məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycana 2-3 günə meymunçiçəyi testləri gətiriləcək

## Hələ ki, heç bir sərhəd-keçid məntəqəsində tədbirlərin görülməsi nəzərdə tutulmur




**"Ölkədə COVID-19-la bağlı epidemioloji vəziyyət tam nəzarətdədir və hər hansı bir sıçrayış olsa, müvafiq addımlar atılacaq".**

**Bu sözləri jurnalistlərə açıqlamasında Səhiyyə naziri Teymur Musayev deyib.**

Nazirin sözlərinə görə, Azərbaycanda COVID-19-a qarşı vaksinasiya kampaniyası 2021-ci ilin yanvar ayının 18-dən başlanıb və uğurla həyata keçirilib: "Məqsəd qrupu 50 yaşından yuxarı olan insanlardı, demək olar ki, əsas ağırlaşmalar onlarda baş tutur. Demək olar ki, onların 90 faizi artıq vaksinasiya olunub, hətta buster dozalarını da alıblar. Ümumi əhalini götürəndə, artıq 74 faiz ətrafı rəqəmdir ki, bu da çox müsbət bir rəqəmdir. Bu, bizdə kollektiv immunitetin formalaşmasından danışmağa imkan verir. Təbii ki, koronavirus virusu hər dəfə yeni sürprizlər meydana gətirir, ona görə də Ümumdünya Səhiyyə Təşkilatının tövsiyəsinə əsasən, payız üçün lazımi tədbirləri görür və ikinci səviyyəli adlanan hazırlıq səviyyəsinə özümüzü çatdırmalıyıq. Bu istiqamətdə bütün lazımi addımlar görülür və payız aylarını sıçrayışsız keçsək, ümidvaram ki, biz pandemiyanın sonu barədə nəsə danışa bilərik".

**T.Musayev həmçinin qeyd edib ki, TURKOVAC vaksini ilə bağlı Azərbaycanda keçirilən sınaq mərhələsi üzrə əldə olunan ilkin nəticələr müsbətdir:** "Bəli, vaksini vurduranlar var. Əldə etdiyimiz ilkin nəticələrə görə deyə bilərəm ki, nəticə müsbətdir. Təbii ki, tam geniş elmi açıqlamanı biz tələb olunan sayı əldə etdikdən sonra və Türkiyə tərəfindən aparılan laborator müayinələr nəticəsində tam bəyan edəcəyik".

Səhiyyə naziri ölkənin sərhəd-keçid məntəqələrində meymunçiçəyi ilə bağlı hər hansı tədbirlərin görülüb-görülməməsi məsələsinə də münasibət bildirib.

O deyib ki, Azərbaycan daima Ümumdünya Səhiyyə Təşkilatının verdiyi qayda və tövsiyələrə əsasən epidemioloji nəzarəti qurur: "Biz buna riayət edirik və bu baxımdan heç bir sərhəd-keçid məntəqəsində hər hansı bir spesifik, meymunçiçəyi ilə bağlı tədbirlərin görülməsi nəzərdə tutulmur".

Nazir Azərbaycanda meymunçiçəyinə yoluxma faktının qeydə alınması ilə bağlı yayılan söz-söhbətlərin əsassız olduğunu deyib.

**T.Musayevin sözlərinə görə, xəstəliyin hazırkı vəziyyətdə yalnız sıx təmas nəticəsində ötürülməsi mümkündür.** "Bildiyiniz kimi, meymunçiçəyinin özünə məxsus simptomları, öz gedişatı var. Təbii ki, onun aşkarlanması üçün əsas vasitə diaqnostika və laborator müayinələrdir. Azərbaycanda belə şübhəli hallar yoxdur deyə, ona ehtiyac duyulmayıb. Amma ölkəyə gətirilən testlər infeksiya nəzarət mərkəzinə təhvil veriləcək və həmin laboratoriyada yoxlamalar keçiriləcək.

Azərbaycan tərəfi Ümumdünya Səhiyyə Təşkilatına meymunçiçəyi virusunu təsbit edən testlərin ölkəyə gətirilməsi üçün ilk müraciət edən dövlətlərdən biri olub. Artıq həmin testlər ÜST-nin Azərbaycandakı nümayəndəsinin rəhbərinə rəsmi şəkildə təhvil verilib. Azərbaycana meymunçiçəyi testləri yaxın 2-3 gün ərzində gətiriləcək".

**Şəymən**



# Ankara Madriddə hədəflərinə çatdı

## Türkiyə qalib, NATO məmnun, Rusiya isə məğlubdur

**Türkiyə, İsveç və Finlandiya arasında imzalanan üçtərəfli memorandum diplomatik zəfərdir. Bu sözləri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib. Prezident bildirib ki, bu memorandum türk üçün çətin danışıqlar prosesindən sonra əldə edilmiş diplomatik qələbədir: "Gecikmələrə dözə bilmərik. İsveç və Finlandiyaya dəvət bir başlanğıcdır. Əsas olan verilən sözün tutulmasıdır. Onların icrasını diqqətlə izləyəcəyik".**

Məlumat üçün bildirək ki, üç ölkə başçılarının görüşündə əldə olunan razılıq nəticəsində Türkiyə İsveç və Finlandiyanın NATO-ya üzvlüyünə qarşı veto hüququndan imtina edib. Razılıq Türkiyənin tələblərinin qəbul edilməsi fonunda əldə edilib. Hər iki ölkə PKK və onun qollarına qarşı mübarizədə Türkiyə ilə tam əməkdaşlıq etmək barədə razılığa gəliblər. Bu istiqamətdə terrorizmlə mübarizədə kəşfiyyat məlumatlarının mübadiləsi üçün strukturlaşdırılmış əməkdaşlıq mexanizmi yaradılacaq. Həmçinin, müdafiə sənayesi məhsullarının tədarükünə qoyulan embarqo aradan qaldırılacaq. Bu istiqamətdə əməkdaşlıq genişləndiriləcək. Eləcə də Finlandiya və İsveçin Avropa İttifaqının təhlükəsizlik mexanizmlərində mümkün qədər geniş iştirakına dəstək veriləcək.

**Politoloq Elçin Xalidbəyli deyib ki, Türkiyə qalib, NATO məmnun, Rusiya isə məğlubdur. Ekspertə görə, rəsmi Ankara Kremlin "ümidləri"ni boşa çıxartdı:** "Türkiyə özünə qarşı Qərbin səhnəarxası təzyiqlərinə və qərəzli məzmun daşıyan tənqidlərə heç bir əhəmiyyət vermədi. Rəsmi Ankara öz tələblərinin arxasında israrla dayandı və sonunda hədəflərinə çatdı. Üstəlik, Qərbdəki rəqiblərə sübut etdi ki, Türkiyənin hərbi-siyasi iradəsi ilə mütləq hesablaşmaq lazımdır. Rəsmi Ankaranın həm NATO daxilində, həm beynəlxalq məkanda öz mövqeyini rəqiblərə qəbul etdirmək qabiliyyəti artıq inkaredilməz reallıqdır. Bütün bunları nəzərə aldıqda, Türkiyənin NATO-nun Madrid sammitindən daha da güclənərək, çıxdığı qətiyyən şübhə doğurmur. Xüsusilə də bundan sonra həm NATO daxilində, həm də beynəlxalq məkanda Türkiyənin siyasi iradəsinin həlledici faktorlardan olacağı da yeni şərtlərin diktə etdiyi reallıqdır. Bundan sonra bu reallığın dünyanın siyasət məkanında güclü Türkiyəni ifadə edəcəyi qətiyyən istisna deyil. Ərdoğanın İsveç və Finlandiya liderləri ilə üçtərəfli anlaşmanın imzalanmasından sonra verdiyi açıqlama Rusiyanı məmnun etməyəcək məzmun daşıyır. Çünki Türkiyə lideri vurğulayıb ki, NATO-nun genişlənməsi Ukrayna savaşı ətrafında yaranmış qəliz situasiyanın həllində də xüsusi rol oynaya bilər. Onun bu açıqlaması Türkiyənin Ukrayna savaşına münasibətdə NATO-nun mövqeyini dəstəklədiyi kimi yozulur".

*Analitikə görə, rəsmi Ankaranın öz mövqeyini bu qədər açıq şəkildə dəqiqləşdirməsi Rusiyanın maraqlarına qətiyyən cavab vermir:* "Kremldə Türkiyənin NATO-dan fərqli mövqe tutmasına böyük ümidlər bəsləyirlər. Halbuki, rəsmi Ankara NATO üzvü olan Türkiyənin davranışlarını və hədəflərini Rusiyanın maraqları üzərində indeksləşdirməz. Ümumiyyətlə isə NATO-nun Madrid sammiti Rusiyanı açıq şəkildə hərbi hədəfə almaqla, Kreml üçün daha təhlükəli situasiya vəd edir. Məsələn, Böyük Britaniya NATO ölkələrinin Rusiyaya münasibətdə daha qətiyyətli davranmasına çağırır. Rəsmi London hesab edir ki, əvvəlcə Rusiya məğlub edilməlidir, yalnız bundan sonra Kremllə danışıqlar aparmaq olar.

Böyük Britaniyanın Baş naziri Boris Conson da İsveç və Finlandiyanın NATO-ya üzvlüyünü bütün dünya üçün tarixi hadisə hesab edir. Onun fikrincə, Rusiyanın hərbi manevr imkanlarının məhdudlaşdırılması artıq qaçılmazdır. Britaniyalı baş nazir əmindir ki, Rusiya Ukraynaya qarşı savaşa başlamaqla, NATO-nu öz qərb sərhədlərindən uzaqlaşdırmaq məqsədi güdsə də, reallıqda bunun əksi ilə qarşıladı: "İndi prezident Vladimir Putin Rusiya sərhədlərinin daha geniş hissəsində NATO-nun mövcudluğunu görməli olacaq".

**E.Xalidbəyli qeyd edib ki, yaxın gələcək üçün NATO-Rusiya münasibətlərinin hansı istiqamətlərə yönələ biləcəyini baş katib Yens Stoltenberq birmənalı şəkildə ifadə edib:** "Stoltenberq Şimali Atlantika Alyansının Rusiya ilə qarşıdurmaya hələ 2014-cü ildən hazırlaşmağa başladığını vurğulayıb. Bu, Rusiyaya qarşı qeyri-rəsmi şəkildə, yəni elan edilməmiş hibrid savaşın aparıldığını göstərir. Savaş mesajı təsiri bağışlamaqla yanaşı, həm də NATO-nun Rusiya ilə bağlı konkret hərbi-siyasi hədəflərinin olduğunu da növbəti dəfə təsdiqləyir. Ona görə də hesab etmək olar ki, Türkiyə NATO-nun Madrid sammitinin əsas qalibidir. İndi rəsmi Ankara bu hərbi-siyasi alyansın qərarlarına təsir etmək mexanizmlərini ön plana çıxartmaqla, yeni dünya düzəninin əsas iradə sahiblərindən biri statusuna iddiasını beynəlxalq rəqiblərinə qəbul etdirib. Bu, Türkiyəni gücləndirməklə yanaşı, beynəlxalq mövqeyini də möhkəmləndirib. Təbii ki, Madrid sammitində NATO da öz hədəflərinə böyük ölçüdə nail olub. Hər halda, rəsmi Ankaranın tələblərinin yerinə yetirilməsinin qarşılığında NATO-nun daha da genişlənmək şansı qazanması olduqca önəmli nəticədir. Bu prosesdə yalnız NATO-ya qarşı əsas beynəlxalq təhlükə mənbəyi elan edilən Rusiyanın məğlub tərəf kimi göründüyü isə inkaredilməz reallıqdır".

**İsmayıl Qocayev**



# Erməni "bülbülü" aranı qatır

## "Olsun, biz də solovyovlarla danışmağın yolunu və üsulunu çox yaxşı bilirik"

**Rusiyanın birinci televiziya kanalının aparıcısı, erməni "bülbül"ü Vladimir Solovyov "Solovyov Live" və eyniadlı teleqram kanalında özünü "Artsaxın xarici işlər naziri" kimi təqdim edən separatçı, terrorçu David Babayanla müsahibə yayımladı.**

Bununla da vətəndaşı olduğu ölkənin qanunlarına, dövlətlərarası öhdəliklərinə və maraqlarına 1 erməni dramı qədər də dəyər vermədiyini ortalığa qoydu. Başqa bir erməniпərəst Modest Kalerovun rəhbərlik etdiyi "Regnum" Agentliyi də separatçı Babayanın sərsəmləmələrini Vladimir Solovyovun sözügedən resurslarına istinad edərək yaydı. Ekspertlərin fikrincə, bu addımlar həmin şəxslərin Rusiya-Azərbaycan arasında imzalanmış müttəfiqlik bəyannaməsinə məhəl qoymadığını nümayiş etdirir.

**Siyasi şərhçi Elçin Mirzəbəyli deyib ki, son 6 ay ərzində nəinki Rusiyada yayımlanan media resurslarını, hətta vətəndaşların sosial şəbəkə hesablarını nəzarətdə saxlayan "Roskomnadzor"dan və digər federal dövlət qurumlarından hələlik səs çıxmayıb.** Onun sözlərinə görə, Vladimir Solovyovun və Modest Kolerovun separatizmin təbliğinə xidmət edən, hüquqi məsuliyyət doğuran əməllərinə münasibətdə dilucu reaksiya belə yoxdur. Ola bilsin, bu, ermənilərin və onların satın aldığı şərəfsiz media çaqqallarının Rusiyada xüsusi statusa malik olduqlarının göstəricisidir. Əgər belədirsə, bunu açıq şəkildə desinlər, biz də işimizi bilək. Əslində Solovyov və Kolerovun nə üçün məhz Azərbaycanla beynəlxalq informasiya təhlükəsizliyinin təmin edilməsi sahəsində əməkdaşlıq haqqında sazişin imzalanmasından sonra belə təxribata əl atmalarının səbəbi bəllidir. Bu, şübhəsiz ki, ilk növbədə Azərbaycanın ictimai rəyinə yönəlmiş və sərt əks reaksiyaya hesablanmış bir davranışdır. Digər tərəfdən isə vətəndaşı olduqları dövlətə meydan oxumaqdır. Məşhur el məsəlində deyildiyi kimi, "siz nə çalırsınız, çalın, biz onsuz da Heyvagülü oynayacağıq".

Analitik vurğulayıb ki, Azərbaycanla imzalanmış bəyannamə və sazişin müddəaları rəsmi Moskvadan Solovyovun təxribatına və "Regnum"un züyçülüyünə sərt reaksiya verilməsini tələb edir: "Gözləyək. Amma bu gözləntinin ömrü uzun olmayacaq. Solovyovların məqsədi Azərbaycan-Rusiya münasibətlərinə mümkün qədər daha çox ziyan vurmaqdan, incəliklərinə toxunmayacağam, amma ictimai rəydə kifayət qədər kövrək olan etimadı tamamilə zədələməkdən ibarətdir. Sükut və laqeydlik isə etimadın ən böyük düşmənidir. Bu hadisədən sonra qarşıma Vladimir Solovyovun "üzrxahlığı" çıxdı. Daha doğrusu, günahından daha böyük "üzrxahlığı". O bildirib ki, balansı pozub və "Qarabağ tərəfi"ni efirə çağırdığı halda Azərbaycan tərəfinin mövqeyini öyrənməyib. Göründüyü kimi, o, separatçıları "tərəf" elan etməklə, Babayanla müsahibədən daha betər bir təxribata əl atıb. Olsun, biz də solovyovlarla danışmağın yolunu və üsulunu çox yaxşı bilirik".

**İsmayıl**

# Türkiyədə qaya parçaları maşınların üstünə tökülüb

## Uçqun nəticəsində həlak olan azərbaycanlının şəxsiyyəti məlum olub

**Türkiyənin Artvin bölgəsində güclü yağışlar sürüşməyə səbəb olub.**

**APA İHA-ya istinadən xəbər verir ki, Kamalpaşa rayonunda qaya parçaları və torpaq dağdan sürüşərək magistral yola tökülüb.**




Yoldan keçən TIR-lara ciddi ziyan dəyib. Ən azı 1 nəfərin öldüyü, yaralananların olduğu bildirilir.

Sürüşmə nəticəsində Qara dəniz sahilində Türkiyə-Gürcüstan beynəlxalq magistralı (Sarp sərhəd-keçib məntəqəsinə gedən yol) ikitərəfli bağlanıb.

Bölgəyə xeyli sayda təcili yardım, xilasetmə qüvvələri cəlb olunub.

Qeyd edək ki, bundan əvvəl də bölgədə sürüşmələr baş verib.

Türkiyənin Artvin vilayətində torpaq uçqunu zamanı həlak olan azərbaycanlı sürücünün şəxsiyyəti bəlli olub.

Bu barədə Trend-in sorğusuna cavab olaraq Beynəlxalq Avtomobil Daşıyıcıları Assosasiyasından (ABADA) bildirilib.

Bildirilib ki, Artvin vilayətində torpaq uçqunu zamanı həlak olan azərbaycanlı sürücünün şəxsiyyəti bəlli olub. 99-HY-188 dövlət nömrə nişanlı yük avtonəqliyyat vasitəsinin sürücüsü Şahlar Kərimovdur.



# "Görüş bitdi, hücum başladı"

## Türkiyənin Madrid sammitində oynadığı rol Yunanıstanda da diqqətlə izlənilir

**Türkiyənin NATO sammitindəki rolu və hadisələri ABŞ-dan Böyük Britaniyaya, Almaniyadan Yunanıstana kimi rezonans doğurmaqda davam edir.**



"Şərq" qəzeti Türkiyə mediasına istinadən xəbər verir ki, "The Wall Street Journal" nəşri "NATO-nun genişlənməsi zamanı Türkiyəyə F-16-ların satışının arxasında Bayden dayanıb" başlıqlı məqalə dərc edib. Qəzetin yazdığına görə, ABŞ liderinin qırıcı təyyarə ilə bağlı şərhi Ərdoğanın Finlandiya və İsveçin üzvlükdən çıxa biləcəyi ilə bağlı şərhindən dərhal sonra gəlib.

ABŞ Prezidenti Co Baydenin "Onlara F-16 təyyarələrini satmalı və təyyarələri modernləşdirməliyik. Bunu etməmək bizim xeyrimizə deyil" deyərək dəstəyini bir daha təkrarlayıb. Qəzetin yazdığına görə, həm ABŞ, həm də Türkiyə Ankaranın ötən ilin payızında qaldırdığı F-16 tələbini müttəfiqlər arasında köhnəlmiş münasibətləri bərpa etmək üçün bir vasitə kimi görür.

**Baydenin dramatik dönüşü**

"British Express" qəzetinin təhlilinə görə, Türkiyənin Finlandiya və İsveçin NATO-ya daxil olması ilə bağlı vetosunu ləğv etməsindən sonra ABŞ lideri dramatik dönüş edib. Alman nəşri "Bayden Türkiyənin F-16-lara olan tələbini dəstəkləyir" yazıb. Xəbərdə ABŞ liderinin daha əvvəl F-16-ların Türkiyəyə satılması lazım olduğunu dediyi vurğulanıb. "Bayden Türkiyəyə F-16 satışına dəstəyini ifadə etdi, güzəştləri rədd etdi" başlığına üstünlük verən "The Hill" ABŞ liderinin müttəfiqinə döyüş təyyarələrinin satışında Konqresin təsdiqinə nikbin olduğunu yazıb. "Washington Post" qəzeti isə "Ərdoğan İsveç və Finlandiyaya NATO müqaviləsindəki vədlərini yerinə yetirmələri üçün xəbərdarlıq etdi" başlıqlı xəbərdə iki Skandinaviya ölkəsinin ittifaqa girməsinin artıq mümkün ola biləcəyini yazıb.

**"Türkiyə lideri əvvəlki ritorikasına qayıtdı"**

Türkiyənin Madrid sammitində oynadığı rol Yunanıstanda da diqqətlə izlənilir. "Kathimerini" qəzeti "Ərdoğan: Görüş bitdi, hücum başladı" başlıqlı xəbərində Türkiyə liderinin mətbuat konfransında Egey dənizindəki adaların silahlandırılmasını gündəmə gətirdiyini qeyd edib. Qəzetin yazdığına görə, Prezident Ərdoğan adaların suverenliyini şübhə altına almayaraq, Lozanna və Paris razılaşmalarına istinad edərək, Afina rəhbərliyindən sözügedən razılaşmaların həyata keçirilməsini istəyib. "Ta Nea" qəzeti "Ərdoğan yenidən təxribat törədir/Sakitlik bir gün davam etdi" başlığı ilə oxucularının qarşısına çıxıb. Qəzet bir gün keçmədən Türkiyə prezidentinin Yunanıstana qarşı köhnə ritorikasına qayıtdığını və gərgin yayın ikitərəfli münasibətlərə doğru getdiyini iddia edib.

Afina administrasiyasına yaxınlığı ilə tanınan "Eleftheros Typos" qəzeti ABŞ Konqresindəki Yunan-Amerika respublikaçılarının prezident Baydenə sərt tənqidlər yağdırdığını yazır. ABŞ liderinin Türkiyəyə F-16 satışını təsdiqləməsini "şok" adlandıran respublikaçı siyasətçilər Qas Bilirakis və Nikol Maliotakis sərt bəyanatla çıxış ediblər. Yunan əsilli respublikaçılar Türkiyəyə silah satışının qəti əleyhinə olduqlarını vurğulayaraq, F-16-ların Şərqi Aralıq dənizində təkcə Yunanıstanı deyil, İsrail və Cənubi Kipri də daha çox qorxudacağını iddia ediblər.

"To Vima" qəzeti isə "Ərdoğan çağırışlarına qayıdır, yeni hücum, Afinadan mesajlar" başlıqlı məqalə dərc edib. Təhlillərə görə, Vaşinqtondan gələn F-16 xəbərləri təsadüfi deyil. ABŞ Türkiyənin istəyini həyata keçirmək üçün siyasi iradə nümayiş etdirirdi. Afinanı narahat edən əsas məsələ Türkiyənin artıq NATO-da əldə etdiyi müsbət atmosferdən Yunanıstana qarşı istifadə edib-etməyəcəyidir.

**Dönüş nöqtəsi: Vaşinqtona səfər**

Yunanıstanın müstəqillik savaşının iki yüz illiyinə ev sahibliyi edən Yunanıstanın Baş naziri Mitsotakis Ağ Evdə ABŞ lideri Co Baydenlə görüşüb. Yunan bayrağının rənglərində mavi və ağ qalstuk taxan ABŞ lideri Mitsotakisi "Mən Co Bidenopulosam" ifadəsi ilə qarşılayıb. Miçotakis ABŞ Konqresindəki çıxışında Türkiyəni hədəf alıb və Türkiyənin proqramdan kənarda qaldığı F-35 təyyarələrinin Yunanıstana satışı Vaşinqtonda da müzakirə edilib. Miçotakis ABŞ Konqresində Kiprdə iki dövlətli həlli əsla qəbul etməyəcəklərini vurğulayaraq Türkiyəyə qarşı ittihamlar səsləndirib: "Hörmətli Konqres üzvləri, sizdən xahiş edirəm ki, son 48 ildə ellinizmin bitməyən iztirablarına səbəb olan açıq yaranı unutmayasınız. Mən Kiprin bölünməsindən danışıram. Bu məsələ beynəlxalq hüquq normalarına uyğun həllini tapmalıdır. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinə uyğun olaraq. Dünən Prezident Bayden" Və dediyim kimi, Kiprdə heç kim heç vaxt iki dövlətli həlli qəbul edə bilməz".

**"Açıq təcavüz aktlarını qəbul etməyəcəyik"**

Kiprlə bağlı açıqlamaları Konqres üzvləri tərəfindən alqışlarla qarşılanan yunan lider Türkiyənin adını çəkmədən hava məkanının pozulmasına da toxunub: "Bununla bağlı qəti şəkildə aydınlıq gətirmək istəyirəm. Suverenliyimizi və suverenliyimizi pozan açıq təcavüz aktlarını qəbul etməyəcəyik. Quru haqlarımız və bu hərəkətlərimiz Yunan adaları üzərindən uçuşların dərhal dayandırılmasına səbəb olacaq". Prezident Ərdoğanın mayın 23-də bazar ertəsi "Artıq mənim üçün Mitsotakis adında biri yoxdur" ifadəsi Vaşinqton turundan sonra sərt keçən Afinadakı atmosferi dağıtmağa kifayət etdi.

**İsmayıl**

# Maliyyə ayrılacaq saytlar və qəzetlər açıqlanıb

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Medianın İnkişafı Agentliyi tərəfindən onlayn media subyektlərinə (veb-saytlara) dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri açıqlanıb.**

**"Şərq " xəbər verir ki, Maliyyə yardımı ayrılacaq onlayn media subyektləri aşağıdakılardır:**



ONLAYN MEDİA
SUBYEKTLƏRİ (VEB-SAYTLAR)
2022-Cİ İLİN 2-Cİ YARIMİLLİYİ

İCTİMAİ-SİYASİ MƏZMUNLU VEB-SAYTLAR

| | | |
|---|---|---|
| anews.az | editor.az | news.az |
| azxeber.com | konkret.az | pravda.az |
| azpost.info | qafqazinfo.az | sfera.az |
| azvision.az | qaynarinfo.az | sia.az |
| bakivaxti.az | lent.az | sonxeber.az |
| bakupost.az | manset.az | teleqraf.com |
| bizim.media | medianews.az | tezadlar.az |
| bizimyol.info | metbuat.az | visiontv.az |
| cebheinfo.az | minval.az | yenicag.az |
| day.az | moderator.az | yenisabah.az |
| demokrat.az | modern.az | 7news.az |

İDMAN MƏZMUNLU VEB-SAYTLAR

| | | |
|---|---|---|
| fanat.az | futbolinfo.az | qol.az |
| football-plus.az | futbolpress.az | sportal.az |

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Qeyd edək ki, Agentlik tərəfindən maliyyələşdirilən onlayn media subyektlərinin (veb-saytların) hər birinə aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir. Maliyyə yardımı göstərilən dövr ərzində onlayn media subyektinin (veb-saytın) müvafiq sayda işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə veb-saytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir.

Həmçinin, Medianın İnkişafı Agentliyi tərəfindən çap mediası subyektlərinə dəstək layihəsi çərçivəsində elan edilmiş müsabiqənin nəticələri də açıqlanıb.

**Müsabiqədə qalib gəlmiş çap mediası subyektləri aşağıdakılardır:**



ÇAP MEDİASI
SUBYEKTLƏRİ
2022-Cİ İLİN 2-Cİ YARIMİLLİYİ

| ÇAP MEDİASI SUBYEKTLƏRİNİN ADLARI | MALİYYƏLƏŞDİRİLƏN NÖMRƏLƏRİN SAYI |
|---|---|
| "525-ci qəzet" | həftədə 5 nömrə |
| "Şərq" qəzeti | həftədə 5 nömrə |
| "Səs" qəzeti | həftədə 5 nömrə |
| "Bakı-Xəbər" qəzeti | həftədə 5 nömrə |
| "Yeni Müsavat" qəzeti | həftədə 5 nömrə |
| "Yeni Azərbaycan" qəzeti | həftədə 5 nömrə |
| "Xalq Cəbhəsi" qəzeti | həftədə 1 nömrə |
| "Azernews" qəzeti | həftədə 1 nömrə |
| "Novoye Vremya" qəzeti | həftədə 1 nömrə |
| "Həftə içi" qəzeti | həftədə 1 nömrə |
| "Hürriyyət" qəzeti | həftədə 1 nömrə |
| "Ədalət" qəzeti | həftədə 1 nömrə |
| "Türküstan" qəzeti | həftədə 1 nömrə |
| "Olaylar" qəzeti | həftədə 1 nömrə |
| "Nedelya" qəzeti | həftədə 1 nömrə |
| "Unikal" qəzeti | həftədə 1 nömrə |

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Xatırladaq ki, həftədə bir nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə aylıq 5000 (beş min) manat, həftədə beş nömrəsi maliyyələşdirilən qəzetlərin hər birinə isə aylıq 15000 (on beş min) manat məbləğində maliyyə yardımı göstərilir. Müsabiqədə qalib elan olunan hər bir qəzet redaksiyasının eyniadlı veb-saytına aylıq 3000 (üç min) manat məbləğində maliyyə yardımı göstərilir. Maliyyə yardımı göstərilən dövr ərzində qəzetin eyniadlı veb-saytının işçilərinin hər birinin əməkhaqqının minimum məbləği 600 manat təşkil etməli, maliyyə yardımının digər hissəsi isə vebsaytın infrastrukturunun gücləndirilməsi, dil imkanlarının genişləndirilməsi, təhlükəsizliyinin təmin edilməsi və rəqəmsal keyfiyyətinin artırılmasına yönəldilməlidir. Maliyyə yardımı göstərilən ay üzrə qəzetin yalnız fiziki şəxslərdən ibarət hər əlavə 500 və 1000 abunəsi üçün müvafiq məbləğdə aylıq bonusun verilməsi nəzərdə tutulur. Bu halda həmin abunə müqavilələrinin surətləri Agentliyə təqdim edilir.*

# Belə getsə hərbçilərimiz sözünü deyəcək

## Qarabağa göndərilən erməni hərbçilər dərhal ərazilərimizdən çıxarılmalıdır



**"Ermənistan Qarabağa müddətdən artıq hərbiçilər göndərirsə, Azərbaycanın cavabı hərbi istiqamətdə olmalıdır".**

Bunu "Şərq"ə politoloq Məhəmməd Əsədullazadə deyib. Ekspert bildirib ki, Ermənistan Rusiya sülhməramlı qüvvələrinin müvəqqəti nəzarət etdiyi əraziyə müddətdən artıq hərbçi göndərməklə ilk növbədə əldə olunan razılaşmaları pozur: "Rusiya sülhməramlı qüvvələri də üzərinə götürdüyü öhdəliklərə əməl etmirlər. Sülhməramlılar Azərbaycan ərazisindən Ermənistan hərbiçilərini çıxarmaq əvəzinə, İrəvandan göndərilən hərbiçilərə şərait yaradır. İlk növbədə bununla bağlı Rusiya tərəfinə kəskin etiraz bildirilməlidir. Əgər belə davam edəcəksə, Azərbaycan yeni Laçın yolunda post qoyacağı mesajını verməlidir. Bu, çox ciddi məsələdir və Azərbaycanın təhlükəsizliyini pozan amildir".

**Analitikə görə, Rusiya tərəfinin addımları Azərbaycanın ərazi bütövlüyünü şübhə altına alır:** "Azərbaycan Ermənistan tərəfindən göndərilən hərbiçilərin dərhal çıxarılmasını tələb etməlidir. Ermənistan bunu Rusiya tərəfinin təlimatları ilə edir. Qarabağda yaşayan ermənilər o qədər azdır ki, silahlı birləşməyə cəlb etməyə adam tapmırlar. Əgər Rusiya və Ermənistan Azərbaycanın təhlükəsizliyini, suverenliyini pozursa, qəti və kəskin addımlar atılmalıdır".

**İsmayıl**

**İsmayıl Qocayev**

# Ortada böyük əmək var

## MEDİA elektron və çap mediasını yeni inkişaf mərhələsinə yönəltdi

**2021-ci il yanvarın 12-də Prezident İlham Əliyevin müvafiq fərmanı ilə yaradılan Medianın İnkişafı Agentliyi ötən müddət ərzində Kütləvi İnformasiya Vasitələrinin inkişafı istiqamətində çox mühüm işlər görüb. Agentlik qısa zaman kəsiyində ölkəmizdə fəaliyyət göstərən və zəruri kriteriyalara cavab verən media subyektlərinin maddi-texniki, eyni zamanda yaradıcılıq imkanlarının daha da təkmilləşdirilməsi məqsədilə bir çox addım atıb.**



## Agentlik üzərinə qoyulmuş vəzifəni şəffaf, tərəfsiz, operativ şəkildə həyata keçirir

KİV-lərin şəffaf və obyektiv formada maliyyələşməsi həyata keçirilib. Peşəkarlıq nəzər yetirilən əsas faktorlar sırasında olub. Medianın İnkişafı Agentliyi yarandığı gündən KİV-də yeni dövrün tələblərinə uyğun yanaşma sərgiləyib. Bu isə Azərbaycan jurnalistikasında genişmiqyaslı islahatların, yeniliklərin tətbiqinə yaşıl işıq yandırıb. Həm çap, həm də elektron mediaya maliyyə dəstəyinin göstərilməsi, fərdi jurnalist müsabiqələrinin daha demokartik və bütün seqmentləri əhatə edən formada keçirilməsi Medianın İnkişafı Agentliyinin Azərbaycan mətbuatının inkişafına verdiyi əsas töhfələrdəndir. Agentlik fəaliyyət göstərdiyi müddət ərzində çoxsaylı seminarlar, təlimlər reallaşdırılıb. Təlim iştirakçılarına müasir media mühiti, jurnalist dəyərləri və bu peşənin etik və peşəkar yanaşmaları tədris edilib. Gənc jurnalistlərin media savadlılığının artırılması ilə bağlı davamlı təlimlərin gerçəkləşdirilməsi, bundan başqa əcnəbi mütəxəssislərin moderatorluğu ilə yerli jurnalistlərimizə fors-major vəziyyətlərdə davranışla bağlı sirlərin aşılanması mühüm işlərdir. Bütün bunlar yaradıcılığın stimullaşdırılması baxımından da çox yaxşı təcrübədir. MEDİA Agentliyinin həyata keçirdiyi ən əlamətdar işlərdən biri də "Media haqqında" yeni qanun layihəsinin hazırlanması və qəbul görməsi oldu. Bu, olduqca ciddi əmək tələb edən və məsuliyyətli məsələ idi. Çünki müstəqil bir ölkənin müstəqil mediasının formalaşması və inkişafı üçün qanun yazmaq tarixi bir missiyadır. Qanunun qəbulu Azərbaycan mediası üçün vacib idi və burada medianın yeni dövrü tamamilə əhatə olunub. Nəzərə almaq lazımdır ki, qlobal dünyanın yeni inkişaf mərhələsinin yeni çağırışları mövcuddur. Bu baxımdan, yeni texnologiyanın tətbiqi, keyfiyyət dəyişikliyi mütləq şəkildə medianın fəaliyyətinə təsir göstərir. Təbii ki, bütün işləri bir-iki il ərzində görmək mümkün deyil. Media bütöv bir sistemdir və həm klassik çap mediasının, həm də yeni internet mediasının özünəməxsus problemləri mövcuddur. Bu problemlərin aradan qaldırılması üçün Agentlik müəyyən təməl formalaşdırıb. Qurum həm onlayn medianın, həm də çap mediasının qarşılıqlı inkişaf tempini artırıb. İnternet resurslarının fəaliyyətində dinamizm hiss olunmaqdadır. Bu da onu göstərir ki, qarşıya qoyulan hədəflərin müəyyənləşməsində MEDİA mühüm rol oynayacaq. Görülən işlər media sahəsində çalışan bütün həmkarlarımızın peşəkarlığının artırılmasına, eyni zamanda milli mediamızın inkişaf etməsinə, müxtəlif sahələrdə yüksək səviyyədə ixtisaslaşmasına səbəb olacaq. Medianın İnkişafı Agentliyinin fəaliyyətinin əsasında da bu dayanır. Qeyd edək ki, Medianın İnkişafı Agentliyi tərəfindən çap və onlayn media subyektlərinə dəstək layihəsi çərçivəsində elan edilmiş növbəti müsabiqənin nəticələri açıqlanıb. Ümumilikdə 57 media subyektinə qarşıdakı altı ay ərzində maliyyə dəstəyi göstəriləcək.

**Mətbuat Şurasının sədr müavini Müşfiq Ələsgərli "Şərq"ə bildirib ki, maliyyə qurumları verilən KİV-lərin kəmiyyətinə baxsaq, hər dəfə say artımının olduğunu görərik. M.Ələsgərlinin sözlərinə görə, maliyyə yardımının verilməsi üçün konkret istiqamətlər qoyulur:** "Şərtlər arasında KİV-lərin peşəkarlığı, onların institusional mövcudluğu, işçilərin əməkhaqqısı, minimum üç nəfər əməkdaşın olması və s. tələblər var. Bu şərtləri bir yerə toplayanda görürük ki, maliyyə yardımı verilən KİV-lərdən öz yaradıcılıqlarında peşəkarlıq və yenilik tələb olunur. Eyni zamanda əməkdaşlarla normal davranış, əmək müqaviləsinin olması və s. məqamlar nəzərə alınır. Bütün bu məsələlər KİV-lərin professional inkişafına təkan verir. MEDİA paralel şəkildə tədbirlər, treninqlər, jurnalistlər üçün peşəkarlıq təlimləri keçirir. Təlimlər ən müxtəlif mövzuları əhatə edir. Burada jurnalistlərin təhlükəsizliyindən başlamış, onların etik standartlara uyğunluğu, mediada gender məsələləri, rəqəmsal mətbuatın inkişafı, xəbərin ilkin mənbədən alınması, dəqiqləşdirilməsi və s. nəzərdə tutulur. Bir sözlə, MEDİA-nın müsabiqələri, yardım kampaniyaları və peşəkarlıq kursları göstərir ki, ölkədəki KİV-ləri dünyanın peşəkar media müstəvisinə çıxarmaq üçün Azərbaycan dövlətinin düşünülmüş proqramı var. Bu proqram uğurla həyata keçirilir".

**"Azxeber.com" informasiya portalının baş redaktoru Hacıbəy Heydərli "Şərq"ə açıqlamasında ilk olaraq qalib olan bütün həmkarlarını təbrik edib. Baş redaktor bəyan edib ki, müsabiqədə qalib olan saytların çoxu imkanları zəif, əlavə gəlir yerləri olmayan saytlardır:** "Onlar bu günə qədər peşəkar səviyyədə fəaliyyət göstəriblər və əzmin, mübarizliyin sayəsində bu yerə gəlib çatıblar. Bu gün də siyahıda həmin saytları görmək müsabiqənin ədalətli keçirildiyini deməyə əsas verir. Müsabiqədə qalib gələn media resursları istər xəbər istehsalında, istərsə də ədalətli və obyektiv fəaliyyəti ilə seçilir. Medianın İnkişafı Agentliyinə ədalətli seçimə görə təşəkkür edirəm. Ümumilikdə isə saytlar və qəzetlər üçün müsabiqələrin təşkil olunması, konkret maliyyə yardımının göstərilməsi, üstəlik, bu zaman obyektivliyi maksimum təmin etmək heç də asan iş deyil. Agentlik artıq dəfələrlə keçirdiyi müsabiqələrdə sübut edib ki, media subyektləri arasında fərq qoymur, hamıya eyni gözlə baxır, tərəfsizliyini qoruya bilir və ən nəhayət, peşəkarlığa üstünlük verir. Bu səbəbdən də MEDİA-nın müsabiqə nəticələri sosial şəbəkələrdə və cəmiyyətdə hər zaman təqdirlə qarşılanır. Bu müsabiqələr həm də Azərbaycanda peşəkar medianın formalaşmasına, jurnalistlərin daha da uğurlu şəkildə fəaliyyətinə hesablanıb. Sayt və qəzetlərin maliyyələşməsi ilə yanaşı jurnalistlər üçün təlimlərin, müsabiqələrin keçirilməsi bu sahədə peşəkarlığın artmasına töhfə verir".

H.Heydərli bəyan edib ki, qalib saytlara kriteriyaların qoyulması da mətbuatımızın inkişafına, oxucunun dəqiq və düzgün məlumat əldə etməsinə, eyni zamanda media subyektləri arasında sağlam rəqabətin yaranmasına yardımçı olur: "Ümumilikdə isə Azərbaycanda KİV-ə maliyyə dəstəyinin ayrılması dövlətimizin mediaya birbaşa qayğısının və dəstəyinin göstəricisidir  Medianın İnkişafı Agentliyi bu müsabiqələrlə medianı yeni inkişaf mərhələsinə gətirib. Bu müsabiqənin bir müsbət tərəfi də odur ki, onlayn media subyektləri məhz MEDİA-nın dəstəyi ilə öz işlərini daha uğurlu və peşəkar səviyyədə qura bilirlər. Qalib olan bütün həmkarlarımızı təbrik edirəm, olmayanlara isə ruhdan düşməməyi və eyni əzmlə, eyni istəklə işlərini davam etməklərini arzu edirəm. Əminəm ki, növbəti müsabiqələrdə onların da adı qaliblər siyahısında olacaq".

**"Yenisabah.az" saytının baş redaktoru Seymur Verdizadə də bildirib ki, MEDİA-nın çap mətbuatına və elektron KİV-lərə maliyyə yardımı ayırması müsbət addımdır. Baş redaktor vurğulayıb ki, sələfindən MEDİA-ya çox pis miras qalmışdı:** "Çoxdan arxivə atılan KİVDF adlı qurumun rəhbərliyinin yarıtmaz fəaliyyəti bütövlükdə media sektoruna ağır zərbə vurmuş, jurnalistlər arasında inamsızlıq yaratmışdı. Hazırda müsbətə doğru nəzərəçarpacaq dəyişikliklər var. Sevindirici haldır ki, Agentlik mətbu sferadakı xaosa, özbaşınalığa son qoymağa çalışır. Media subyektləri arasında fərq qoymur, hamıya eyni gözlə baxır, tərəfsizliyini qoruya bilir. Nəticələri açıqlanan müsabiqə bunu sübut edir. Hesab edirəm ki, MEDİA-nın bu gün açıqladığı nəticələr yazılı və elektron KİV-i böyük ölçüdə əhatə edib".

S.Verdizadə deyib ki, jurnalistlərin reyesterinin aparılmasına, dövlət qurumları ilə medianın münasibətlərinin tənzimlənməsinə çox ehtiyac var. Onun sözlərinə görə, MEDİA-nın fəaliyyəti bu istiqamətə yönəlib: "Düzdür, mətbuatla bağlı problemlərin tam şəkildə həllini bir qurumdan gözləmək sadəlövhlükdür. Amma əsas odur ki, MEDİA üzərinə qoyulmuş missiyanı çox yaxşı şəkildə icra edir. Nə mümkündürsə, onu səliqəli və operativ şəkildə həyata keçirir".



# Bakı platforması böyük hadisədir

## Qoşulmama Hərəkatı qlobal miqyasda proseslərə təsir gücünü artıracaq

İsmayıl Qocayev

**Prezident İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışı zamanı bir sıra mühüm məqamlara toxundu. Ölkə rəhbərinin qurumla bağlı bəyanları və təklifləri çox önəmli idi. Dövlət başçısı bildirdi ki, Qoşulmama Hərəkatının institusional inkişafı üçün praktiki addımlar atılmasının vaxtıdır. Prezidentin sözlərinə görə, bu, ölkələr arasında həmrəyliyi gücləndirəcək:**

”Qoşulmama Hərəkatı BMT-dən sonra ikinci ən böyük beynəlxalq institutdur və əlbəttə, biz hamımız istəyirik ki, səsimiz qlobal miqyasda eşidilsin. Parlament Şəbəkəsi bizim irəli sürdüyümüz və sizin dəstəyinizi qazanan yeganə təşəbbüsümüz deyil, digər vacib təşəbbüs də Gənclər Şəbəkəsidir. Gələn ay biz Bakıda digər vacib tədbiri - Qoşulmama Hərəkatının Gənclər Sammitini keçirəcəyik. Bunlar institusional inkişaf istiqamətində atılan addımlardır. Düşünürəm ki, bu istiqamətdə praktiki addımlar atılmasının vaxtıdır. Azərbaycanın irəli sürdüyü və üzv ölkələrin dəstəklədiyi digər təşəbbüs Qoşulmama Hərəkatının Nyu-Yorkda dəstək ofisinin açılmasıdır”. Dövlət başçısı əlavə edib ki, Qoşulmama Hərəkatındakı dostlarımız Azərbaycana qarşı təxribatların qarşısını aldılar. Bəzi ölkələrin Azərbaycana qarşı kampaniya apardıqlarını, iftiralar atdıqlarını təəssüflə qeyd edən Prezident deyib ki, bu, təkcə sözlərlə ifadə olunan kampaniya və ittihamlar deyildi, özünü başqa şəkildə də göstərirdi: ”Bəzi ölkələr bu barədə BMT Təhlükəsizlik Şurasında məsələ qaldırmışdılar. Lakin bizim Qoşulmama Hərəkatında olan dostlarımız bu cəhdin qarşısını aldılar. Beləliklə, Ermənistanın beynəlxalq səviyyədə Azərbaycana qarşı təxribatlarının qarşısı alındı”.

**Dövlət başçısının toxunduğu məqamları ”Şərq”ə dəyərləndirən Milli Həmrəylik Partiyasının sədri Əlisahib Hüseynov deyib ki, Bakıda Qoşulmama Hərəkatının həm Parlament Şəbəkəsinin təsis edilməsi, həm də konfransının keçirilməsi günə öz damğasını vurdu. Partiya rəhbərinin sözlərinə görə, istər şəbəkənin yaradılması, istərsə də Bakı konfransının keçirilməsi təşəbbüsü şübhəsiz ki, Azərbaycan Prezidenti və Qoşulmama Hərəkatının sədri cənab İlham Əliyevə məxsusdur:** ”Bu hadisə beynəlxalq münasibətlər sisteminə yeni nəfəs, dinamika gətirə biləcək potensiala malik siyasi-diplomatik hadisədir. Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin məhz Bakıda yaradılmasına sıradan bir hadisə kimi baxmaq olmaz. Bu, qlobal əhəmiyyəti olan bir addımdır. Belə bir şəbəkənin yaradılması beynəlxalq proseslərdə həmrəylik və qarşılıqlı dəstəyin gücləndirilməsi istiqamətində əlavə bir addım ola, güclü təsir vasitəsinə və ədalətin müdafiəsi mexanizminə çevrilə bilər. İyunun 30-na, Beynəlxalq Parlamentarizm Gününə təsadüf edən Bakı konfransı və sözügedən şəbəkənin yaradılması təkcə Hərəkata üzv olan ölkələrin parlamentlərarası əlaqələrinin möhkəmlənməsinə xidmət etməyəcək. Həm də Hərəkatın qlobal miqyasda proseslərə təsir gücünü daha da artıracaq. Prezidentin toxunduğu iki məqam hazırda ölkəmiz və dünya birliyi üçün xüsusilə önəmlidir. Birinci məqam ATƏT-in Minsk qrupunun bundan sonrakı mövcudluğuna zərurətin olub-olmaması ilə bağlıdır. Dövlət başçısı çıxışında 44 günlük İkinci Qarabağ müharibəsi dönəmində ermənipərəst qlobal qüvvələrin Azərbaycana qarşı hücumlarına mane olan, BMT Təhlükəsizlik Şurasında anti-Azərbaycan mahiyyətli bəyanatı bloklayan Qoşulmama Hərəkatında təmsil olunan dost ölkələrə bu həmrəyliyə görə minnətdarlığını bildirdi. Qeyd etdi ki, biz uzun illər boyu, təqribən 30 il ərzində gözləyirdik ki, beynəlxalq ictimaiyyət ədalətsizliyə və işğala son qoyulmasına yardım edəcək. ATƏT-in 1992-ci ildə təsis etdiyi Minsk qrupu münaqişənin həll yolunu tapacaq və beləliklə, torpaqlarımızın işğalına son qoyulacaq. Lakin biz bunun tam əksinə olan bir münasibətlə üzləşdik. Təəssüf ki, haqq və ədalətin bərpası üçün məsuliyyət daşıyan Minsk qrupu bu münaqişənin əbədi davam etməsini istəyənlərin əlində alətə çevrildi. Həmsədrlər ədalət prinsipinə xəyanət etdilər. Ona görə də Azərbaycan tarixi ədaləti təkbaşına bərpa etməli oldu”.

**Ə.Hüseynov vurğulayıb ki, ölkə rəhbəri İlham Əliyev birmənalı surətdə Minsk qrupuna ehtiyac olmadığını qeyd etdi:** ”Biz Minsk qrupuna artıq ”əlvida” demişik. Ermənistan və ona havadarlıq edən bəzi ölkələrin indi bədnam Minsk qrupunu həyata qaytarmağa çalışması həm mümkünsüzdür, həm də bu cəhdlər tamamilə absurddur. Çünki Azərbaycan Prezidentinin də vurğuladığı kimi Minsk qrupu artıq ”ölüb”. Onu reanimasiya etmək, yenidən ”diriltmək” cəhdləri Don Kixotun yel dəyirmanı ilə səmərəsiz mübarizəsinə bənzəyir. Paşinyan və onun havadarları Don Kixotluqdan əl çəkməlidirlər. Dövlət başçımız haqlı olaraq qeyd etdi ki, ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır. Eyni zamanda, regionda mümkün sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir. Kim bunun əksinə cəhd göstərirsə və hansı qüvvələr Minsk qrupunun aktivləşdirilməsinə çalışırsa, demək ki, həmin qüvvələr hazırda Cənubi Qafqazda qalıcı sülhün bərqərar olunmasında maraqlı deyil. Bu baxımdan, İlham Əliyevin Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında çıxışında bəyan etdiyi qəti mövqe Minsk qrupu ilə bağlı spekulyativ söz-söhbətlərə birdəfəlik nöqtə qoydu”.

**Politoloq qeyd edib ki, Prezidentin çıxışında vurğulanan ikinci mühüm məqam isə BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsinin gündəmə gətirilməsidir:** ”Qoşulmama Hərəkatının dönəm sədri kimi belə bir təşəbbüsün məhz Azərbaycan tərəfindən gündəmə gətirilməsi çox ciddi hadisədir. Çünki Azərbaycan uzun illər boyu BMT və digər beynəlxalq təşkilatlar tərəfindən yürüdülən ”ikili standart”lar siyasətindən əziyyət çəkib. İlham Əliyev vurğuladı ki, 1993-cü ildə BMT Təhlükəsizlik Şurası 4 qətnamə qəbul etmişdir ki, orada erməni qoşunlarının bizim ərazimizdən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Sual olunur ki, niyə bu qətnamələr icra edilmədi? Buna cavab verə bilən yoxdur və ya cavab vermək istəmir. Növbəti sual ondan ibarətdir ki, niyə BMT Təhlükəsizlik Şurasının bəzi qətnamələri bir neçə gün içərisində icra olunur, bizə gəldikdə onlar 28 il ərzində kağız üzərində qalır? Bax, bu suallara nə BMT səviyyəsində, nədəki digər müstəvilərdə heç kim cavab verə bilmir, yadaki vermək istəmir. Çünki onlar özləri də bu həqiqəti yaxşı bilirlər ki, Azərbaycana münasibətdə həqiqətən də ədalətsizliyə yol verilib. Əgər ordumuz 44 günlük müharibə nəticəsində torpaqlarımızı işğaldan azad etməsə idi, BMT-nin məlum qətnamələri yəqin ki, bundan sonra da uzun illər ərzində kağız üzərində qalacaqdı. Ona görə də Azərbaycanın BMT-nin və onun Təhlükəsizlik Şurası çərçivəsində islahatların aparılması məsələsini gündəmə gətirməyə tam haqqı çatır. Doğrudan da, əgər qətnamələr icra edilmirsə, onları qəbul etməyin nə mənası var? Və yaxud, öz qətnamələrinin icrasına səy göstərməyən və bununla da öz etibarını, nüfuzunu zərbə altında qoyan bir təşkilat nəyə görə əvvəlki qaydada fəaliyyət göstərməlidir? BMT həqiqətən də dünya miqyasında ədalətin, beynəlxalq hüququn təmin olunmasında maraqlıdırsa, mütləq islahatlara getməlidir. Azərbaycan bu islahatların tərəfdarıdır. Rəsmi Bakı hesab edir ki, bu, Qoşulmama Hərəkatının dövlət və hökumət başçıları səviyyəsində müzakirə olunmalı və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin siyasi üstünlük əsasında icra edilməsinə son qoyulmalıdır. Qoşulmama Hərəkatını sözün yaxşı mənasında, BMT-nin potensial rəqibinə çevirmək lazımdır. Hansı münaqişəni BMT həll edə bilmirsə, orda məhz Qoşulmama Hərəkatı öz sözünü mütləq deməlidir. Dövlət başçımızın da qeyd etdiyi kimi Qoşulmama Hərəkatı problemlərin həlli yolunu tapmaq üçün platforma ola bilər. Azərbaycan Prezidentinin Qoşulmama Hərəkatının institusional inkişafına və onun növbəti mərhələdə hərəkatdan təşkilata çevrilməsinə yönəlik hədəfləri həqiqətən də təqdirəlayiqdir”.

# İran Azərbaycanla körpü tikəcək

## Xudafərinin birgə bərpası hər iki ölkənin iqtisadi maraqlarına uyğundur



”Bu, hər iki ölkədə turist sayının artmasına gətirib çıxaracaq”

**Mədəniyyət naziri Anar Kərimov İranın mədəni irs, turizm və əl işləri sənayesi naziri ilə görüşüb. Mədəniyyət naziri bildirib ki, iki dost ölkənin qədim tarixə malik münasibətlərinin təməli qarşılıqlı etimad üzərində qurulub.**

O, həmçinin mədəni və humanitar sahədə əməkdaşlığın önəmindən danışıb. Tərəflər işğaldan azad olunmuş tarixi torpaqlarımızda dağıdılmış həm müsəlman, həm də xristian dininə aid məbədlərin eyni həssaslıqla bərpa olunduğunu bildirərək yüksək qiymətləndiriblər. Mədəniyyət paytaxtımız Şuşanın islam dünyası üçün kəsb etdiyi yüksək dəyərdən danışıblar. Eləcə də Qarabağda davam edən yenidənqurma və bərpa işlərində İranın təcrübəsindən yararlanmağın vacibliyi vurğulanıb. Xudafərin körpüsünün birgə bərpası məqsədilə Anlaşma Memorandumunun imzalanması barədə də fikir mübadiləsi aparılıb. Görüş tərəfləri maraqlandıran bir sıra mövzuların müzakirəsi ilə davam edib.

**Millət vəkili Vüqar Bayramov deyib ki, İran və Azərbaycan arasında iqtisadi, mədəni əlaqələrin genişləndirilməsi hər iki ölkənin maraqlarına uyğundur. Deputatın sözlərinə görə, İran-Azərbaycan son illərdə xarici ticarət dövriyyəsini artırmağa nail olublar**: ”Pandemiyadan əvvəl İranla xarici ticarət dövriyyəmiz yarım milyard dollara qədər yüksəlmişdi. Amma potensial daha böyükdür. Mədəni, nəqliyyat, turizm, iqtisadiyyat sahəsində kifayət qədər böyük imkanlar var. Bu imkanların reallaşması nəticə etibarı ilə hər iki ölkənin dövlət gəlirlərinin artmasına töhfə verəcək. Xudafərin körpüsünün birgə bərpası, gələcəkdə məhz həmin ərazi üzərindən İranla kommunikasiyanın genişləndirilməsi iki tərəfin iqtisadi maraqlarına uyğundur. Bu, hər iki ölkədə turist sayının artmasına gətirib çıxaracaq. Ona görə də qarşılıqlı əməkdaşlıq ölkələrin inkişafı baxımından olduqca vacibdir. Regionda dayanıqlı sülhün dəstəklənməsi aspektindən prioritetdir. Son müzakirələr, bu istiqamətdə atılmış addımlar göstərir ki, Azərbaycan sülhə maraqlı olan qonşularla əməkdaşlığı genişləndirmək niyyətindədir”.

**İsmayıl Qocayev**

# Media nümayəndələri üçün təlim keçirilib




**Medianın İnkişafı Agentliyinin və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin (DVX) birgə təşkilatçılığı ilə media nümayəndələri üçün təlim təşkil olunub. Təlimdə 30-a yaxın media nümayəndəsi iştirak edib.**

”Vergi sistemi, vergi qanunvericiliyi və inzibatçılığı” mövzusunda keçirilən təlimdə DVX-nin Vergi siyasəti baş idarəsinin Vergi qanunvericiliyi idarəsinin rəisi Rəşad Nuriyev, İqtisadi təhlil və uçota nəzarət baş idarəsinin Sosial sığorta və əmək münasibətlərinə nəzarət idarəsinin rəisi Nigar Vahabzadə və Hüquqi şəxslərin dövlət qeydiyyatı baş idarəsinin şöbə rəisi Leyla Hüseynzadə iştirakçılara təqdimatlar ediblər.

Tədbirdə təlim iştirakçılarına büdcə sistemi, vergi daxilolmalarının büdcə gəlirlərində rolu, vergi qanunvericiliyi və vergi sistemi, əmək münasibətlərinə nəzarət üzrə vergi inzibatçılığı, hüquqi şəxslərin qeydiyyatı sahəsində islahatlar, vergi ödəyicilərinin hüquq və vəzifələri barədə geniş məlumat verilib, müzakirələr aparılıb, jurnalistlərin sualları cavablandırılıb.

Təlimin sonunda Medianın İnkişafı Agentliyinin İcraçı direktoru Əhməd İsmayılov və İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəis müavini Samirə Musayeva media nümayəndələrinə sertifikatlar təqdim ediblər.

**Kəmalə Ağazadə:**
“Gənc analar bəzən övladlarının gələcəyini ötəri hisslərə qurban verir”

# Ailələr tar-mar olur

## Narkotik asılılıq artıq fidanların başının üstünü qara bulud kimi alıb

**Azyaşlı 3 uşağın ananın sevgilisi tərəfindən döyülməsi hadisəsi görkəmli yazıçı İsa Muğannanın ”Saz” pyesi əsasında ekranlaşdırılmış ”Tütək səsi” filmini yada saldı. Oxucumuz yəqin xatırlayır ki, filmdə kolxoz sədri Cəbrayılın Sayalı ilə evlənməsinə kənd camaatı, az qala hər ikisini də kənddən qovmaq dərəcəsinədək sərt reaksiya verir, el içində biabır edirlər.**

Adət-ənənəni pozmalarını cəmiyyət onlara bağışlamır. Müharibə idi və həyat yoldaşı müharibədə olan, öldü-qaldısı dəqiq bilinməyən birisinin xanımı ilə evlənmək əsgər namusunun tapdanması hesab edilirdi. Ötən əsrin Azərbaycanı belə idi; qadınlar məhz övladları var deyə, nəinki ikinci dəfə evlənməyə, heç boşanmağa da razı olmurdular. Əksər hallarda (əlbəttə istisnalar, fərqliliklər həmişə olur), övladlarını min-bir əziyyətlə, təkbaşına boya-başa çatdırırdılar. Getdikcə vəziyyət dəyişdi, dəyərlər də itib-getdi. Əlbəttə, azad cəmiyyətdə yaşayırıq. Hər kəs öz taleyinin hakimidir. Hər qadın şəxsi həyatını istədiyi kimi qura bilər. Lakin ortada uşaqlar varsa, qadın kiminlə yenidən ailə qurduğuna diqqət etsə yaxşıdır. Çünki Sumqayıtda baş vermiş hadisə təkrarlana bilər. Bu günlərdə Sumqayıt şəhərində üç azyaşlı fiziki zorakılığa məruz qalıb. Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat katibi Teymur Mərdanoğlu ”Report”un sorğusuna cavab olaraq bildirib ki, azyaşlıların döyülməsi faktı ilə bağlı Sumqayıt Şəhər Polis İdarəsində hazırda istintaq aparılır. Onun sözlərinə görə, iyunun 30-da sosial şəbəkələrdə yetkinlik yaşına çatmayan 3 uşağın analarının narkotik maddə istifadə etməsi ehtimal edilən, qeyri-rəsmi münasibətdə olduğu şəxs tərəfindən zorakılığa məruz qalması barədə məlumat yayılıb. Həmin məlumat əsasında Dövlət Komitəsi tərəfindən dərhal Sumqayıt Şəhər İcra Hakimiyyəti ilə əlaqə saxlanılıb. Eyni zamanda məsələ ilə əlaqədar qurum tərəfindən aidiyyəti orqanlara rəsmi müraciət ünvanlanıb.



3 azyaşlı uşaq ananın sevgilisi tərəfindən işgəncələrə məruz qalıb, onlar indi sığınacaqda yaşayırlar

Azərbaycan Uşaqlar Birliyinin sədri, Uşaq Sığınacağı Reinteqrasiya Mərkəzinin rəhbəri Kəmalə Ağazadə ”Şərq”ə açıqlamasında qeyd etdi ki, həmin məlumat barədə o özü sosial şəbəkə hesabında paylaşım edib:

- Uşaqların işgəncəyə məruz qalması haqqında biz məlumat vermişik. Azyaşlı 3 bacı (7,9, 11 yaşlarında K.A.) ananın sevgilisi tərəfindən fiziki zorakılığa məruz qalıb. Sumqayıt şəhər 4-cü Polis bölməsi tərəfindən 12 iyun 2022-ci ildə təhqiqat başlanıb. Hazırda uşaqlar sığınacaqdadır. Onlara lazımi yardım göstərilir, yeməklə, geyimlə təmin edilirlər. Uşaqlar təhsildən də yayındırılıb. Bununla bağlı da müvafiq iş görüləcək. Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsi, Daxili İşlər Nazirliyi, ƏƏSMN-in Sosial Xidmətlər Agentliyi hadisə barədə məlumatlıdır. Uşaqlara işgəncə vermiş şəxslə bağlı bazar ertəsi hüquqi addımlar atılacaq. Həmin şəxsə qarşı AR CM-nin 128-ci maddəsi ilə cinayət işi açılıb. Böyük ehtimalla şəxs barəsində həbs-qətimkan tədbiri seçiləcək.

**K.Ağazadə uşaqların anasının hazırda axtarışda olduğunu dedi:**

- Ananın harada olması hələ ki, bilinmir. Axtarışdadır. Qadının da, münasibət saxladığı şəxs kimi narkotik asılılığı var. Güman ki, qadın həmin şəxsin təsiri altında narkotik maddə qəbul edib, narkotik asılılığı yaranıb. Qadının istintaqa cəlb edilib-edilməyəcəyi barədə hələ bir söz deyə bilmərəm. Hazırda əsas iş qadının tapılması və müalicə müəssisəsinə yerləşdirilməsidir. Uşaqlar barədə də müvafiq qərar veriləcək. Doğmaları qəyyumluğu üzərlərinə götürmək istəsələr, müvafiq icra strukturunun qərarı olmalıdır.

**K.Ağazadə son illərdə mənəvi dəyərlərin aşınmaya məruz qaldığından narahatlığını ifadə etdi:**

- Təəssüf ki, gənc analar bəzən övladlarının gələcəyini ötəri hisslərə qurban verir. Yaxşı ki, dövlətimiz hər bir vətəndaşına, hər uşağa sahib çıxır.

**Məlahət Rzayeva**

# IX Qlobal Bakı Forumu: *risklər və təhdidlər şəraitində Azərbaycanın yeni təşəbbüsləri*

**Azərbaycanın İkinci Qarabağ müharibəsindən sonra bölgədə münasibətlərin normallaşdırılması və sülhün təmin olunması istiqamətində atdığı addımlar beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənir. Rəsmi Bakı Cənubi Qafqazda yeni əməkdaşlıq formatının qurulması üçün ciddi fəallıq nümayiş etdirir. Bu prizmadan IX Qlobal Bakı Forumu region üçün mühüm hadisə kimi qiymətləndirilirdi. Bu gözlənti özünü tamamilə doğrultdu.**

Tədbirdə Azərbaycan Prezidenti regional və qlobal təhlükəsizliyə və əməkdaşlığa yeni yanaşmaların vacibliyini vurğuladı. Bundan başqa, dövlət başçısı konkret təşəbbüslərlə çıxış etdi. Məsələnin dəqiq praktiki aspekti də mövcuddur. Belə ki, Prezident İlham Əliyevin keçirdiyi bir sıra görüşlərdə bölgədəki cari münaqişə sonrası vəziyyət, üçtərəfli bəyanatların icrası, sülh quruculuğu səyləri, sərhədlərin delimitasiyası üzrə komissiyaların fəaliyyəti, kommunikasiyaların açılması, gələcək sülh sazişinin imzalanması kimi mühüm mövzularda səmərəli müzakirələr aparıldı.

Azərbaycan regional geosiyasi faktor kimi: yeni şərtlər fonunda

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə 16-19 iyun tarixində "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumu tarixi hadisədir. Azərbaycan davamlı olaraq mötəbər beynəlxalq tədbirlərin təşəbbüskarı və təşkilatçısı kimi çıxış edir. Onların hər birinin regional və qlobal əhəmiyyəti böyükdür. Bu dəfə isə daha geniş miqyasda əhəmiyyəti şübhə doğurmayan prosesi görürük.

Bu tezisin məzmunu, əslində, Prezident İlham Əliyevin Forumda söylədiyi nitqin müddəalarında ifadə edilib. Həmin məqamların üzərində dayanmaq gərəkdir. Məsələ ondan ibarətdir ki, bu tədbir İkinci Qarabağ - Vətən müharibəsindən sonra belə formatda və miqyasda keçirilən ilk Forum idi (dünyanın 50-dən çox ölkəsinin nümayəndəsi iştirakçı idi).

Qlobal və regional aspektlərdə baxdıqda, Forumun müəyyən mənada Azərbaycanın tarixi Qarabağ Zəfərindən sonra dünya dövlətlərinin Cənubi Qafqazın geosiyasi dinamikası və mənzərəsinə baxışının "siyasi barometri" olduğunu qəbul etməliyik.

Geosiyasi və siyasi olaraq digər əhəmiyyətli məqam Azərbaycanın bu yüksəksəviyyəli missiyaya necə hazır olduğunun nümayiş olunması ilə bağlıdır. Belə ki, dünya rəsmi Bakının böyük Zəfərdən sonra regionda sülh, sabitlik və əməkdaşlıq üçün təkliflərini həssaslıqla gözləyirdi.

Başqa bir faktor Azərbaycan rəhbərliyinin dünya üçün aktual olan təhdidlərə baxışının önəmli olması ilə əlaqəlidir. Çünki Azərbaycan regionun lideri kimi həmin aspektdə daha təsirli addımlar ata bilər. Həmin addımların istiqaməti, məzmunu və strateji məqsədi barədə dünyanın böyük güclərinin aydın təsəvvürünün olması lazımdır.

Nəhayət, bütün dünya Azərbaycanın enerji təhlükəsizliyini necə görməsi və ona hansı töhfələri verə bilməsi barədə dövlət başçısı İlham Əliyevin özündən eşitməkdə maraqlı idi.

Vurğulanan vacib qlobal geosiyasi məsələlərin aktuallığını Forum öncəsi və ondan sonra dünyanın böyük geosiyasi güclərinin Azərbaycan rəhbərliyi ilə qurduqları təmaslar və müzakirə olunan mövzular tam təsdiq edir. Çünki ABŞ, Avropa İttifaqı, Türkiyə, Çin və Rusiyanın yüksəksəviyyəli təmsilçiləri siyasi və geosiyasi xarakterli məsələləri məhz İlham Əliyevlə müzakirə etdilər və bu proses davam edir. Eyni zamanda, Azərbaycan Prezidenti də Forum öncəsi və sonrası aktiv diplomatik fəaliyyəti ilə dərin düşünülmüş, strateji əhəmiyyətli kurs həyata keçirdiyini nümayiş etdirdi. Bu iki aspektin qarşılıqlı əlaqəsi müstəvisində Forumda Prezident İlham Əliyevin irəli sürdüyü olduqca əhəmiyyətli tezislərə təhlili nəzər salmaq son dərəcə




vacibdir. Öncə ekspertlərin baş verənlərə münasibəti üzərində dayanmağın faydası olduğunu düşünürük.

Forumla bağlı dünyanın müxtəlif ölkələrinin ekspertlərinin apardıqları analizlər göstərir ki, artıq Azərbaycanın fəaliyyətini kiçiltmək, ona qərəzli şərhlər vermək tendensiyası xeyli dərəcədə azalıb. İki mühüm siyasi məqam ön plana çıxıb: birincisi, ekspertlər birmənalı olaraq Azərbaycanı Cənubi Qafqazın geosiyasi, siyasi, iqtisadi və enerji sahələrində lider dövləti kimi qəbul edirlər. İkincisi, Cənubi Qafqazda sülh, barış və əməkdaşlığın yeganə stimulverici gücü Azərbaycanı hesab edirlər. Onlar bu cür qiymətləndirmələrini ABŞ, Türkiyə, Avropa İttifaqı və Rusiya kimi böyük güclərin regional məsələlərdə başlıca olaraq Azərbaycana etibar etmələri faktı əsasında aparırlar.

O da maraqlıdır ki, ekspertlər bunun fonunda Ermənistan, Gürcüstan, Qazaxıstan, Ukrayna və Moldovanın qarşılaşdıqları geosiyasi problemləri də şərh edirlər. Bu müqayisədən Azərbaycanın uğurlu, qətiyyətli və müstəqil olması aydın görünür.

Bütün bunları nəzərə alaraq, Prezident İlham Əliyev Forumdakı nitqində Azərbaycanın regional və qlobal miqyasda geosiyasi faktor kimi rolu və yerini dəqiq ifadə edib.

Dövlət başçısı Cənubi Qafqazda mövcud münaqişə sonrası vəziyyəti, üçtərəfli bəyanatların icrası ilə bağlı məsələləri, bölgədə münasibətlərin normallaşdırılması və sülhün təmin olunması istiqamətində atılan addımları yeni geosiyasi reallıqlar və ölkəmizin sülh quruculuğu səyləri kontekstində çox dərin, obyektiv və ədalətli əlaqələndirib. İlham Əliyev vurğulanan məqamları sərhədlərin delimitasiyası üzrə komissiyaların fəaliyyəti, kommunikasiyaların açılması və gələcək sülh sazişinin imzalanması məsələləri ilə əlaqələndirərək irəli sürdüyü tezisləri əsaslandırıb.

Həmin bağlılıqda Azərbaycan Prezidentinin "Zəngəzur dəhlizi açılmadan regionda sülh, əməkdaşlıq mümkün olmayacaq" məzmunlu tezisi müasir politoloji əsərlərin tədqiq etməli olduğu fikir kimi qəbul edilməlidir. Çünki həmin tezis müasir geosiyasətdə əməkdaşlığın başlıca müddəalarından sayılan "qarşılıqlı faydalılıq" prinsipinin konkret təzahürlərindən biridir. Eyni zamanda, İlham Əliyev müstəqil bir dövlətin suverenliyini beynəlxalq hüquq normaları çərçivəsində tam təmin etməyə istiqamətləndiyini nümayiş etdirir.

Bütün bunlar Prezident İlham Əliyevin müasir mərhələdə regional və qlobal geosiyasi proseslərə yanaşmasından qaynaqlanır. Bunu dövlət başçısının Forumda ifadə etdiyi aşağıdakı tezisdən aydın görmək olar. İlham Əliyev ifadə edib: "Mənim indi dediklərim altı ay bundan əvvəl burada əyləşərək söylədiklərimdən tamamilə fərqlidir. Bu onu göstərir ki, hər şey dəyişə bilər, hər şey dəyişir və heç nə sabit deyil".

Siyasi baxımdan Prezidentin bu mövqeyi konkret və ciddi praktik aspektlərə əsaslanan real-politik ruhlu strategiyanı əks etdirir. İlham Əliyev sürətlə dəyişən müasir geosiyasi dinamikaya uyğun fəaliyyət kursu müəyyənləşdirir və qərarlar qəbul edir. Həmin səbəbdəndir ki, Azərbaycan region və dünya üçün əhəmiyyətli olan təşəbbüslərlə çıxış edir. Cənubi Qafqazda bu cür mövqedə olan ikinci dövlət yoxdur.

Həmin gerçəkliyin prizmasından Azərbaycan Prezidentinin aşağıdakı fikirləri dövlətimizin regional və qlobal geosiyasətdəki yeri və rolunun özəlliklərini dəqiq əks etdirir. İlham Əliyev Forumdakı nitqində vurğulayıb: "Əlbəttə, Azərbaycanın Prezidenti olaraq mən ölkəmizin təhlükəsizliyi ilə bağlı məsələlər üzərində çalışıram və Qarabağ münaqişəsinin həlli, zənnimcə, regionda təhlükəsizlik üçün, regionda sülh üçün bir fürsətdir. Keçən dəfə görüşəndə mən işğal, dağıntı və xalqımızın demək olar ki, otuz il əziyyət çəkdiyi humanitar böhranla bağlı məsələyə geniş şəkildə toxundum. Bunları təkrarlamaq istəmirəm, bunlar artıq məlumdur. Çünki işğaldan azad edilmiş ərazilərdə o qədər ziyarətçilər - siyasətçilər, ictimai xadimlər, jurnalistlər, vətəndaş cəmiyyətinin nümayəndələri olublar, onlar hər şeyi, erməni işğalından sonra hansı dağıntıların qaldığını öz gözləri ilə görüblər".

Bütün bunlar İlham Əliyevin Forumda irəli sürdüyü bir tezisi tam əsaslı edir: yeni yanaşmalara ciddi ehtiyac yaranıb.

Yeni yanaşmalar: geosiyasi zərurətin bir sıra aspektləri kontekstində

Prezident İlham Əliyevin geosiyasi proseslərə yeni yanaşmalardan bəhs etməsinə tam əsas vardır. Çünki məhz İlham Əliyevin həyata keçirdiyi uğurlu xarici siyasət ölkəmizi Cənubi Qafqazın lider dövləti kimi dünya birliyində söz sahibinə çevirib. İki ildən artıqdır ki, koronavirus pandemiyası ilə uğurlu mübarizə davam edir, Azərbaycan iqtisadi cəhətdən zəif olan ölkələrə humanitar yardımlar göstərir. Bu cür mürəkkəb vəziyyətdə Azərbaycan Ermənistanın 30 illik işğalçılıq siyasətinə son qoyub. Buna görədir ki, Prezident İlham Əliyev xarici səfərləri zamanı qalib Azərbaycanın lideri kimi qəbul edilir.

Eyni zamanda, şübhə yoxdur ki, vurğulanan uğurlara imza atan bir liderin regional və qlobal geosiyasi əhəmiyyətli yeni yanaşmalar təklif etməyə tam haqqı vardır. IX Qlobal Bakı Forumunda İlham Əliyevin irəli sürdüyü təkliflər bütün bunlara görə böyük diqqət və hörmətlə qarşılandı. Dövlət başçısı nitqində həmin kontekstdə vurğulayıb: "Əminəm ki, müzakirələr və fikir mübadiləsi qlobal gündəlikdə əsas yer alan məsələlərin həllində yeni yanaşmaların işlənib hazırlanmasına kömək edəcək. Öz fəaliyyəti ərzində Nizami Gəncəvi Beynəlxalq Mərkəzi qlobal məsələləri müzakirə edən və geniş beynəlxalq birliyi öz sıralarına qata bilən aparıcı beynəlxalq institutlardan birinə çevrilib. Biz İdarə Heyətinin üzvləri ilə dünən görüşdük və mənə məlumat verildi ki, IX Forumda demək olar ki, 50 ölkədən nümayəndə, yüksək səviyyəli nümayəndə iştirak edir və bu göstərici bir il bundan əvvəlki göstəricidən xeyli çoxdur. Bu, bizim müzakirələrin cəlbedici olduğunu nümayiş etdirir, bu platformaya ehtiyacın olduğunu nümayiş etdirir və o, çox faydalıdır, onun çox mühüm praktiki təsiri var".

Fikirlərini inkişaf etdirərək Azərbaycan Prezidenti dünyada baş verən dəyişikliklərin fundamental olduğunu xüsusi qeyd edib. Həm də bu dəyişikliklər "hələ ki, proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir. Buna görə də müzakirələr, fikir mübadilələri, bəzən fərqli fikirlərin ziddiyyətləri yeni yanaşmaların işlənib hazırlanması üçün lazım olanlar da bunlardır".

Deməli, birincisi, qlobal miqyasda köklü dəyişikliklər baş verir, ikincisi, bu dəyişikliklər "proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur", yeni risk və xaos əlamətləri getdikcə artır, üçüncüsü, bütün bunlar dünyanı tamamilə fərqli bir duruma gətirə bilər, dördüncüsü, belə bir şəraitdə dünya siyasətçiləri yeni yanaşmalar üzərində işləməlidirlər.

Bununla İlham Əliyev, faktiki olaraq, yeni yanaşma təklif edir. Onun qısa məzmunu ondan ibarətdir ki, yeni risklər və təhdidlərlə xarakterizə olunan qlobal fundamental dəyişikliklər şəraitində ədalətli, obyektiv, adekvat və sülh, barış, əməkdaşlığa xidmət edən yanaşmalar işlənib hazırlanmalıdır. Bu yanaşmaların konkret məzmununu müəyyənləşdirməyə yardım etmək üçün Azərbaycanın dövlət başçısı təhdidlərin ümumi istiqamətlərini də Forum iştirakçılarının diqqətinə çatdırıb. Həmin bağlılıqda dövlət başçısı məsələnin iki aspektini ayrıca qeyd edib. Onlardan biri hər bir ölkənin "bu prosesə, ilk növbədə, təhlükəsizlik tədbirləri ilə bağlı töhfə verməli" olmasından ibarətdir. Digəri isə "Avropadakı cari vəziyyət barədə açıq müzakirələrin aparılması" tələbi ilə bağlıdır.

Azərbaycan rəhbəri bu vəzifənin öhdəsindən gəlinməsində ölkəmizin oynaya biləcəyi rolu da aydın təqdim edib. İlham Əliyev deyib: "Qlobal Bakı Forumu bunun üçün mükəmməl platforma olaraq çıxış edir. Bu Forum müxtəlif tərəflərin fikirlərini toplayan inklüziv bir Forumdur və hesab edirəm ki, bu, belə də olmalıdır. Çünki biz hamımız dünyanı daha da təhlükəsiz etmək üçün bir-birimizlə daha yaxından çalışmalıyıq".

Beləliklə, Azərbaycanın dövlət başçısı dünya miqyasında fəsadları ola biləcək təhdidlərin ümumi mənzərəsini dəqiqliklə təqdim edib və çıxış yollarını da göstərib. Bu sırada "gündəlikdə duran məsələlərdən biri beynəlxalq institutların, aparıcı beynəlxalq institutların, aparıcı maliyyə institutlarının ərzaq böhranı ilə mübarizədə rolunun nədən ibarət olması məsələsi böyük aktuallıq kəsb edir". Bundan başqa, "beynəlxalq təşkilatlar və aparıcı ölkələr, həmçinin miqrantların potensial artımı ilə bağlı vəziyyətin öhdəsindən gəlməlidirlər". "Enerji bazarlarındakı vəziyyəti buraya əlavə etsək, bu vəziyyəti proqnozlaşdırmaq çətindir. O, istehsalçılar və istehlakçılar arasında qeyri-bərabərsizliyə yol açır və bu, həmçinin istehsalçılar üçün də riskdir".

İlham Əliyev bunlarla yanaşı, enerji təhlükəsizliyini "qlobal gündəliyin aktual məsələlərindən biri" kimi xarakterizə edib. Bunun fonunda, bir tərəfdən, Azərbaycanın enerji resurslarına ehtiyacın daha da artması, digər tərəfdən isə "yaşıl enerji" layihələrinin reallaşdırılması diqqəti çəkir. Enerji təhlükəsizliyinin hər iki aspekti üçün isə təhdidlər qalmaqdadır. Onlar müxtəlif təbiətlidirlər, lakin bütövlükdə dünya enerji təhlükəsizliyi sisteminin yeni şərtlər daxilində qurulmasına əngəllər törədirlər. Deməli, dünya birliyi Azərbaycanın enerji resurslarından istifadə məsələsi ilə "yaşıl enerji" layihələrinin yeni şərtlər çərçivəsində sintezinə nail olmalıdır.

Vurğulanan kontekstdə Azərbaycan Prezidentinin çox aktual bir tezisi maraqlı və əhəmiyyətlidir. Həmin tezisin iki aspekti vardır. Birincisi, Ermənistan sülh sazişinə hazır olmalıdır. İkincisi, regionda əməkdaşlıq imzalanmış müqavilələrə uyğun aparılmalıdır və həmin kontekstdə Zəngəzur dəhlizinin açılması vazkeçilməz mütləq şərtdir. Çünki Zəngəzur dəhlizi açılmasa regionda heç zaman sabit sülh, barış və əməkdaşlıq mümkün olmayacaq. Bundan başqa, Azərbaycan-Ermənistan sərhədinin delimitasiyası və demarkasiyası baş tutmayacaq.

Beləliklə, Azərbaycan Prezidenti İlham Əliyev böyük məharət və ədalətlə Cənubi Qafqazın təhlükəsizliyini qlobal təhlükəsizliklə sintez edə bilən mövqe təklif edib. Real fəaliyyətdə də bu istiqamətdə addımlar atıldığını nümayiş etdirib. Bu məqam bir neçə faktda özünü göstərir.

Faktların fonunda: Azərbaycanın regional və qlobal tərəqqiyə töhfələri

Onlardan biri Bakı Enerji Həftəsi çərçivəsində 27-ci Beynəlxalq Xəzər Neft və Qaz Sərgisinin rəsmi açılış mərasimində Prezident İlham Əliyevin çıxışında irəli sürülən fikirlərdə aydın ifadə edilib. İlham Əliyev Azərbaycanın regional təhlükəsizlik və qlobal enerji təhlükəsizliyinin təmininde oynadığı rolu geniş təhlil edib, bu istiqamətdə rəsmi Bakının mövqeyini inkişaf etdirəcəyi zərurətini vurğulayıb. Eyni zamanda, Qərbin üzərinə düşən vəzifələri yerinə yetirməsi vacibliyini də önə çəkib.

Digər fakt İlham Əliyevin ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Karen Donfridi qəbul edərkən söylədiyi fikirlərdə ifadə edilib. Görüşdə "enerji sahəsində əməkdaşlıq, regionda təhlükəsizlik, postmünaqişə dövrü, Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşdırılması və digər məsələlər" ətrafında fikir mübadiləsi aparılıb.

Bunlarla yanaşı, İlham Əliyevin Özbəkistana uğurlu səfəri də mütləq vurğulanmalıdır. Çünki Azərbaycan Prezidentinin dost və qardaş ölkəyə tarixi səfəri ikitərəfli və çoxtərəfli əməkdaşlığı inkişaf etdirmək üçün möhkəm təməl yaratmış oldu. O cümlədən Azərbaycan-Özbəkistan strateji tərəfdaşlığı yeni yüksəliş mərhələsinə daxil oldu. Səfər nəticəsində strateji xarakterli sənədlər imzalandı. Azərbaycan bununla həm regional təhlükəsizliyə, həm də türk dövlətlərinin inteqrasiyasına böyük töhfə vermiş oldu. Bu isə bütövlükdə geniş geosiyasi məkanda sülh, sabitlik və əməkdaşlığa xidmət deməkdir.

Bu kontekstdə Rusiyanın Xarici işlər naziri Sergey Lavrovun Azərbaycana səfərini də unutmaq olmaz. Prezident İlham Əliyevlə aparılan müzakirələr göstərdi ki, Rusiya regionda həlledici söz sahibi ölkə kimi Azərbaycanı qəbul edir və onunla əməkdaşlığı daha da inkişaf etdirməkdə çox maraqlıdır. Rusiya Cənubi Qafqazda müharibənin qaynar mərhələdən diplomatik müstəviyə keçirilməsində mühüm rol oynayıb. Bu fakt Prezident Vladimir Putinin Tacikistan və Türkmənistana səfəri fonunda böyük əhəmiyyət daşıyır. Konkret olaraq, Azərbaycan bütün böyük güclər tərəfindən pozitiv geosiyasi rol oynayan ölkə kimi qəbul edilir.

Bütün bunların yekunu kimi bir tezisi irəli sürmək olar: Azərbaycanın sülh təşəbbüsləri regionun və bütövlükdə dünyanın tərəqqisinə xidmət edir!

**Kamal Adıgözəlov**

## Qırğızıstanın müstəqilliyi təhlükə altındadır

Borclarını qaytara bilməsə Pekin Bişkəkə ağır şərtlər irəli sürəcək



**"Qırğızıstanın müstəqilliyinə təhdid mövcuddur. Qırğızıstan Prezidenti Sadır Japarov həyəcan təbili çalıb.**

Dövlət başçısının sözlərinə görə, Qırğızıstanın artan xarici borcu ölkənin müstəqilliyinə əsas təhlükə mənbəyinə çevrilib. Prezident borc mövzusunda parlamentdə çıxış edib. Qırğızıstanın xarici borcunu ödəyə bilmədiyinə görə müstəqilliyini itirmə təhlüksəziyi ilə üz-üzə qaldığını bildirib: "Yaxın 10 ildə borclarımızı qaytarmalıyıq. Bu borclar müstəqilliyimizi əldə etdiyimiz 30 il ərzində yığılıb". Sadır Japarov borcun ödəmə müddətinin onun prezidentlik dövrünə təsadüf etdiyini vurğulayıb: "Bu il 289 milyon dollar, gələn il isə 314 milyon dollar borc qaytarmalıyıq".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu deyib ki, açıqlanan rəqəm məhdud resursları olan Qırğızıstan üçün böyük məbləğdir:** "Qırğızıstanın əsas borcu Çinədir. Bişkəkin Pekinə təxminən 2 milyard dollara yaxın borcu var. Qırğızıstan borcu qaytarmaq iqtidarında deyil, əksinə, borc almaqda davam etmək məcburiyyətindədir. Pekin hələ ki, Qırğızıstana borc verməkdə davam edir. Ancaq bu durum Qırğızıstanı defolta sürükləyir. Bu halda Pekin Bişkəkə ağır şərtlər irəli sürəcək. Qırğızıstan prezidenti "müstəqilliyimizi itirə bilərik" dedikdə məhz Pekinin ağır şərtlərini nəzərdə tutub. Tacikistan da Qırğızıstanla oxşar vəziyyətdədir. Tacikistanın Çinə artan borcu o həddə çatıb ki, Düşənbə bir neçə iri yatağının istismarını borc əvəzi Pekinə məxsus şirkətlərə verib. Kasıb Tacikistanın Çinə 1.2 milyard dollar borcu var. Pekin Qərb ölkələrindən fərqli olaraq investisiya əvəzinə ağır şərtlər irəli sürmür. Tacikistanın qızıl mədənlərinin 80 faizi Çinə məxsusdur. Son 14 ildə Düşənbənin Pekinə borcu 6 dəfə artıb. Mərkəzi Asiyanın digər ölkəsi olan Özbəkistanın Çinə olan borcu ümumi gəlirinin 16 faiz həcmindədir. Dünya Bankının araşdırmasına görə, Çin inkişaf etməkdə olan ölkələrə kütləvi borc vermək siyasətindən imtina etməyib. Nəticədə həmin ölkələrin hökumətləri borcu qaytara bilmirlər. Bunun ardınca həmin ölkələrin Çindən həm iqtisadi, həm də siyasi asılılığı artır. Əsas təhlükə də bundadır".

**İsmayıl Qocayev**

## Vasitəçilərə etimad yoxdur

Minsk qrupu sülhə, barışa, birgəyaşayışa ancaq problemlər yarada bilər

**44 günlük Vətən müharibəsindən sonra Ermənistan kənarda qalmış ATƏT-in Minsk qrupunun vasitəçiliyində israrlıdır. Prezident İlham Əliyev dəfələrlə bəyan edib ki, Qarabağ münaqişəsinin dinc yolla nizamlanmasında ATƏT-in Minsk qrupu heç bir rol oynaya bilməyib. Bu gün ATƏT-in Minsk qrupunun fəaliyyətinə ehtiyac yoxdur.**

Çünki Azərbaycan torpaqlarını düşmən tapdağından öz gücünə azad edib. Bu mənada "siyasi meyit"ə çevrilmiş Minsk qrupunun reanimasiyasına cəhd yalnız Ermənistanın istəyidir. İyunun 30-da Prezident İlham Əliyev Qoşulmama Hərəkatı Parlament Şəbəkəsinin Bakı konfransında sözügedən məsələyə toxunub.

Ölkə başçısı diqqətə çatdırıb ki, Azərbaycan öz ərazi bütövlüyünü hərbi və siyasi yolla təmin edib: "Biz Minsk qrupu ilə vidalaşmışıq, onlarla sağollaşmışıq. Lakin təəssüflər olsun, Ermənistan tərəfi və digərləri bu qrupu canlandırmaq istəyirlər. Bu, qeyri-mümkündür. Artıq o qrup ölüdür, cansızdır. Biz işğaldan xeyli əziyyət çəkmişik və açıq-aydın şəkildə bildiririk. ATƏT-in Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya nəinki qeyri-məhsuldardır, eyni zamanda dağıdıcıdır, regionda sülhün bərqərar olması üçün dağıdıcı təsirə malikdir".

**Mövzu ilə bağlı "Şərq"ə danışan Azərbaycan Yüksəliş Partiyasının sədri Anar Əsədli söyləyib ki, Minsk qrupunun dirçəldilməsində məqsəd hibrid təzyiq elementi kimi bölgədə daim gərginlik ocağını saxlamaqdan ibarətdir:** "Həmsədrlər 30 il ərzində heç bir irəliləyişə nail olmayıb. Bölgəyə az qalsın turistik səfərlər etməkdən başqa iş görə bilməyiblər. Azərbaycan nəhayət, 2020-ci ilin payızında özü müzəffər ordusu ilə Qarabağı işğaldan azad etdi. Münaqişə həllini tapdı. Azərbaycan BMT-nin 4 məlum qətnaməsini də təkbaşına icra edib.




Dövlət rəhbəri postmüharibə dövründə dəfələrlə münaqişənin bitdiyini açıqlayıb. "Dağlıq Qarabağ" adlı ərazi vahidi, belə bir termin də yoxdur. Bundan sonra söhbət ancaq sülh müqaviləsindən, kommunikasiyaların açılmasından, sülhməramlıların müvəqqəti nəzarətində olan ərazilərdəki separatçıların, revanşist düşüncəli ermənilərin tam neytrallaşdırılmasından gedə bilər".

**A.Əsədlinin fikirlərinə görə, Minsk qrupu yenə də öz ampluasından çıxmaq istəmir, absurd şəkildə "danışıqlar prosesinin bərpasından" danışır:** "Azərbaycanın təkbaşına Cənubi Qafqaz regionunda yaratdığı yeni geosiyasi reallıqlar bölgədə xüsusi marağı olan güc mərkəzlərini də məmnun etmir. Bölgədə Ermənistanın və ermənilərin məğlub obrazının yaranmasını qəbul etmirlər. Minsk qrupu ötən dövr ərzində neytrallığını heç cür qoruya bilmədi və ona qarşı etimad tamamilə sıfıra enib.

Belə bir şəraitdə Minsk qrupunun mövcudluğu bölgəmiz üçün yalnız problemlər yarada, sülhə, barışa, birgəyaşayış niyyətlərinə yönəlik fəaliyyətə mane ola bilər. Dövlət başçısının kəskin mövqeyi tamamilə yerində verilmiş qiymətdir".

**Partiya sədri sonda vurğulayıb ki, Azərbaycan üçün müharibə bitib və dövlətimiz, cəmiyyətimiz problemi yenidən yaratmağa nə Minsk qrupuna, nə də başqa geosiyasi güc mərkəzlərinə imkan verəcək:** "Əgər iddialarına davam edərlərsə, şübhəsiz, Azərbaycan Minsk qrupundan çıxması ilə bağlı suveren haqqını gündəmə gətirə bilər. Hələ 1992-ci ildə məhz Azərbaycanın xoşniyyətli siyasi təşəbbüsü və dəvəti ilə ATƏT-in Minsk qrupu vasitəçilik missiyasını öz üzərinə götürmüşdü.

Süni şəkildə münaqişənin mövcudluğu görüntüsünü yaratmaq, bunun üzərində abstrakt danışıqlar aparmaq nəticə etibarı ilə erməni revanşizminə dəstək verməkdən başqa bir şey deyil. Bu da Azərbaycanın müstəqil dövlət olaraq milli və strateji maraqlarına dair qırmızı çizgilərinə ziddir".

**Aygün Tahir**

# Çoxuşaqlı ailələrin qara günü başlayır

## Məktəbli formalarının 3 ildən bir dəyişməsi aztəminatlı ailələr üçün əlavə və böyük xərc olacaq



**Məktəbli forması ilə bağlı hər hansı təzyiqdən söhbət gedə bilməz. Bunu Bakı Şəhəri üzrə Təhsil İdarəsinin müdiri Mehriban Vəliyeva jurnalistlərə açıqlamasında deyib. BŞTİ müdiri xatırladıb ki, məktəbli formaları ilə bağlı Nazirlər Kabinetinin müvafiq qərarı var: "Bu da məktəbli formasının rəngi, forması və şagirdlərin sağlamlığına xidmət edən qərardır. Qəbul edilən qərar və qanunlara hər kəs riayət etməlidir. Təhsil müəssisələrindəki pedaqoji şuranın qərarı ilə məktəbli formaları üçün təklif edilən üç rəngdən biri seçilə bilər.**

Bu mövzuda başqa təzyiqlər ola bilməz. Valideynlər məktəbin qərarına hörmət edərək rəng seçiminə uyğun olaraq öz övladlarını geyimlə təmin etməlidirlər. Bu, bizim şagirdlərin gələcək sağlam inkişafına müsbət təsir edən amildir. Hesab edirəm ki, sentyabr ayından heç bir təzyiq olmadan, əksinə, sevinərək bu istiqamətdə yaxşı mənzərəni görərək fəaliyyətə başlayacağıq". Forma seçən məktəblərin olub-olmamasına gəlincə, M.Vəliyeva əlavə edib ki, bu, hər bir məktəb üzrə pedaqoji şuranın qəbul edəcəyi qərardır: "Ona görə yekun nəsə demək mümkün deyil. Ola bilsin ki, avqust ayında keçiriləcək şurada bu barədə qərarlar qəbul edilsin. Valideynlərlə maarifləndirici işlər aparılacaq və seçim işlərində köməklik ediləcək".

BŞTİ-nin müdiri "yaxşı mənzərəni görərək fəaliyyətə başlanacağına" inanır. Bəlkə də ümid edir. Amma BŞTİ müdirinin inamlı açıqlaması məktəbyaşlı övladı olanların narahatlığını aradan qaldırmır. Məsəl var, ilan vuran ala çatıdan qorxar. İllər öncə vahid məktəbli formaları tətbiq edildikdə də təhsilimizin başında dayananlar "məcburiyyət yoxdur, valideynlər hardan istəyir, məktəbli forması alsın", deyirdi. Amma sonra məlum oldu ki, məktəb rəhbərliyi sexlərlə sövdələşməyə gedir, valideynlər qarşısında "filan sexin, filan fabrikin istehsal etdiyi formaları alın" tələbi qoyur. Bizim ölkədə valideynin könüllü iştirak etdiyi nəsə var ki, ümumiyyətlə?!. Yeni məktəbli formalarıyla bağlı pedaqoji şuraların və valideynlərin qərar verəcəyi də absurd görünür. Məktəb rəhbərliyindən kənar hansısa qərarın qəbulunu düşünmək ağlasığmazdır. Yaxşı, əgər könüllülük prinsipidirsə, niyə rəngləri, geyim formalarını Nazirlər Kabineti seçir, qiyməti tikiş fabriki təyin edir? 21-ci əsrdə məktəbliyə - şagirdə "bu formalardan birini geyinməlisiniz" deməyin özü uşaq hüquqlarının pozulmasıdır artıq. Məlum məsələdir, məktəblinin uniforması olmalıdır. Bəs niyə 3 rəngdə, 3-4 elementli? Vahid məktəbli forması tətbiq edilirsə, vahid - tək, bir dənə olmalıdır. Niyə özəl məktəblər, liseylər dövlət ümumtəhsil müəssisələrinin şagirdlərindən geyimləri ilə fərqlənməlidir? Ötən illərdə də belə idi. Sanki bu məktəblər göydən səbətlə düşüb, şagirdləri digər məktəblərdən fərqlənirdi. Kimsə bu yazılanları "sovet təfəkkürü", "mənasız bərabərlik" fəlsəfəsi hesab edə bilər. Lakin məsələ uşaqlar arasında yersiz, lazımsız ayrı-seçkilik qoyulmasındadır. Bunun sonrası cəmiyyətdə parçalanmaya gətirib çıxarır. Keçək, yeni məktəbli formalarının dəyərinə. Təhsil ekspertləri bu fikirdədir ki, valideynlər yeni məktəbli formasına xeyli pul xərcləməli olacaqlar. Məktəbli formalarının hər 3 ildən bir dəyişdiriləcəyi xəbəri də valideynləri əməlli-başlı rəncidə edir. Hər 3 ildən bir məktəbli formasının dəyişdirilməsi, 2 və ya 3 uşağının təhsil aldığı ailələr üçün maddi sıxıntıdan başqa bir şey olmayacaq. Valideyn böyük övladının geyimini kiçik övladına geyindirə bilməyəcək. Ailələrin 90 faizinin tək övladlı olduğu nəzərə alınıbsa, bu başqa məsələdir. Maddi sıxıntı çəkən ailələr bir tərəfdən məktəbli forması kabusu altında 1-dən artıq övlad istəməz artıq.

**Təhsil üzrə ekspert Kamran Əsədov hesab edir ki, yeni məktəbli formalarının tətbiqi valideynlərin büdcəsinə əhəmiyyətli təsir edəcək:**

- Yeni məktəbli formaları oğlan və qız şagirdləri üçün ayrı-ayrı, qış və yay geyimlərindən ibarətdir. Məktəbli formaları 3 tədris ili ərzində dəyişilməz olaraq qalsa da, valideynlər məcbur olacaq ki, aşağı sinifdə oxuyan uşağına bir, yuxarı sinifdə təhsil alan uşağına digər forma alsın. Bir ailədən bir neçə uşağın məktəbə getdiyini nəzərə alsaq, valideynlər məktəbli formasına xeyli pul xərcləməli olacaqlar.

Yeni qərara əsasən təhsilalanların geyim forması təbii və keyfiyyətli (möhkəmlilik və davamlılıq xüsusiyyətləri, habelə aşınma müqaviməti olan, qırışlar yaratmayan, yuyulduqdan sonra ölçüləri dəyişməyən, rəngi solmayan və qarışmayan, təri yaxşı qəbul edən, spesifik qoxusu olmayan, sürtünmə nəticəsində elektrikləşməyən) parçalardan tikilməli, təhsilalanların sağlamlığına mənfi təsir göstərməməlidir. Təhsilalanlar üçün hazırlanan geyim formalarının etiketində istifadə edilən parçanın tərkibi barədə və "məktəbli forması" sözləri yazılmalıdır. Geyim formasının üzərində (ön tərəfinin sol yuxarı hissəsində və ya sol qol hissəsinin yuxarı kənar tərəfində) məktəbin emblemi əks oluna bilər. Məktəblinin geyim forması - qızlar üçün yay forması: üçdüyməli qısaqol köynək və ətək. Oğlanlar üçün yay forması - üçdüyməli qısaqol köynək və şalvar. Qızlar üçün qış forması - üçdüyməli uzunqol köynək, ətək və ya şalvar, önü bağlanılan cibli jaket. Oğlanlar üçün qış forması - üçdüyməli uzunqol köynək, şalvar və önü bağlanılan cibli jaketdən ibarətdir. Rəng seçimi də genişdir. 3-4 rəng təklif olunur.

**Sosioloq Lalə Mehralı da hesab edir ki, məktəbli formalarının hər 3 ildən bir yenilənməsinin hansı əsasa, hansı məntiqə söykəndiyinə dair məntiqi izah verilməlidir:**

- Bununla bağlı heç bir izah verilmir. Niyə 3 il "möhlət" qoyulur, 3 ildən bir forma niyə dəyişməlidir? Məktəb dəb yeridir? Şagirdin geyimi rahat, praktik olmalıdır. Yəni bizim ali savadlılar şagirdlər üçün vahid bir forma tərtib edə bilmir? Məktəbli formalarının hər 3 ildən bir dəyişməsi aztəminatlı ailələr üçün əlavə və böyük xərcdir. Elə ailələr var, 3 övladı məktəbə gedir. Məktəbli forması hər 3 ildən bir dəyişəcəksə, kiçik yaşlılar böyüklərin formasını geyinə bilməyəcək. Valideyn mütləq yenisini almalıdır. Buna isə maddi imkanları çatmayacaq. Bilirsiz, bu, qız uşaqlarının, eləcə də təhsildən yayınmaya meyilli olanların məktəbdən daha da uzaqlaşmasına gətirib çıxaracaq. Biz illərdir erkən nikahlarla mübarizə aparırıq. Bundan sonra valideyn deyəcək, forma almağa gücüm yoxdur, fərqli geyimdə də uşağı məktəbə buraxmırlar. Mən də göndərmirəm. Yeni məktəbli formaları sözsüz ki, baha olacaq. Çünki deyilənə görə, 97 faiz pambıq parçadan olmalıdır. Pambıq parçalar da bahadır. Məktəbli formasının elementləri də çoxdur. Köynək, jilet, şalvar, ətək. Qısa qollusu, uzun qollusu... Ona görə də qiymətlər normal standartlardan baha olacaq. Təkcə bir nəfərin əmək haqqı aldığı, azyaşlı, məktəbli uşaqların 2-3 olduğu ailələri düşünsünlər. Aztəminatlı ailələrin övladlarının məktəbli forması ilə dövlət hesabına təmin edilməsi məsələsinə baxılmalıdır.

**Məlahət Rzayeva**



**Təbrik edirik!**

**Ramal** səni ad günün münasibəti ilə təbrik edirəm, sənə uzun ömür, cansağlığı, ailə səadəti arzulayıram. Ailənlə neçə belə gözəl illərə çıxasan.
**Hörmətlə, Əli.**
*Təbrikə ailəsi, dostları da qoşulur.*

# Xaricə "beyin axını"nın qarşısı alınmalıdır

## Rafiq İsmayılov: "Yaradıcı adamlar məmurlara və yaxud müəyyən yerə müraciət ünvanlayanda yad münasibət görürlər"



**Azərbaycanda tendensiyaya çevrilmiş "beyin köçü"nün qarşısını almaq olmur.**

Hər il yüzlərlə ali təhsilli vətəndaş ölkəni tərk edir. Gənclər xaricə üz tutur, qayıtmır. Mütəxəssislər deyir ki, ölkədəki tendensiya gələcəkdə kadr böhranına yol aça bilər. Artıq deputatlar, təhsil üzrə ekspertlər də SOS siqnalı çalır. Millət vəkili Etibar Əliyev də söyləyib ki, "beyin axını" kiçik ölkələri pis vəziyyətə salıb: "Azərbaycanı xeyli sayda elm adamlarımız tərk edib. Onların kənarda uğurlarını görəndə istər-istəməz beynimizdən belə bir sual keçir: "Burda olsaydılar daha yaxşı olmazdımı? Ölkəni tərk edən tanınmış fiziklər, kimyaçılar və riyaziyyatçılar sanki nədənsə küsüblər. Onlar ildə bir neçə dəfə gəlib universitetlərimizdə kurslar aparsalar, tələbələrlə görüşsələr, çox faydalı ola bilər.

Ancaq onların belə fəaliyyətini görmürük. Bəlkə, özlərinə sığışdırmırlar! Elm adamı umu-küsünü unutmalıdır. Əməkhaqqı və universitetlərdəki mühitin bəhanə gətirilməsi mümkündür".

**Təhsil üzrə ekspert Rafiq İsmayılov mövzu ilə bağlı "Şərq"ə danışıb:**

"Tanınmış fizik, akademik Çingiz Qacar vardı, son illərdə tarixi əsərlər yazırdı. Ondan "siz axı fiziksiz, niyə tarixlə məşğul olmağa başladız?" soruşdular. O da demişdi ki, Azərbaycanda fizik kimi fəaliyyət göstərməkdən ötrü texniki bazamız, laboratoriya şəraitimiz yoxdur. Azərbaycanda xüsusi proqram nəzərdə tutulmalıdır. Çox vaxt layihələr kadrları nəzərə alaraq tərtib olunur. Bəlkə də yuxarılar bu barədə düşünürlər. Lakin müşahidələrə əsasən konseptual dövlət proqramına rast gəlinmir. Xaricdə və ölkəmizdə hansı kadrlarımızın olduğunu bilmirik". R.İsmayılov söyləyib ki, xaricdə belə kadrların gördükləri iş əvəzində aldıqları əməkhaqqı çox yüksəkdir: "Ölkəmizdə intellektul araşdırmalarla məşğul olan insanlara "biznes" kimi yanaşırlar. Onların gördüyü iş nəticəsində ölkəyə, həmçinin sərmayədara böyük gəlir gələcəyini düşünmürlər. Lütfi Zadənin gördüyü işlərin maddi gəliri olmadı. Onun fəlsəfəsinə əsaslanaraq, texnikada, siyasətdə, sosiologiyada və s. elə yeniliklər baş verdi ki, dünya miqyasında dəyər verildi. Elmi araşdırmalar tez bir zamanda gəlir gətirmir. Müəyyən layihələr icra olunduqdan sonra gəlir əldə etmək mümkündür. Korrupsiya faktlarına görə, xaricə "beyin axını" olur. Yaradıcı adamlar məmurlara və yaxud müəyyən yerə müraciət ünvanlayanda yad münasibət görürlər. Ona görə araşdırmaçılar da xaricə getməyi üstün tuturlar".

**Aygün Tahir**

**Elan**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi tərəfindən Cəlilov Sucaət Mislim oğlunun adına verilmiş 2594 nömrəli (seriya №-AA 0006247) xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

# Azərbaycanın məhsulları Rusiya bazarlarına axır

## Balans pozulub, ona görə ölkəmizdə meyvə-tərəvəzlərin qiyməti bahalaşıb

**Rusiyanın Sverdlovsk vilayəti ərazisinə meyvə və tərəvəz ixrac edən əsas ölkələr arasında Azərbaycanın adı ilk sıralardadır.**

Svetlana Terexova bildirib ki, ekzotik meyvələrin uzaq ölkələrdən birbaşa tədarükü dayanıb, lakin onların yerini ən yaxın tərəfdaş ölkələr tutub. Azərbaycan, Özbəkistan, Türkmənistandan kənd təsərrüfatı məhsullarının ixracı artıb.

**İqtisadçı-ekspert Rauf Qarayevin "Şərq"ə açıqlamasına görə, Azərbaycanın daxili istehsalı həm yerli tələbatı tam ödəməyə, həm də ixrac ilə bağlı tələbi qarşılamağa yetərli deyil.** Tərəvəz məhsullarının ixrac həcmi artan kimi daxili bazarda disbalans yaranır və qiymətlərin artması müşahidə olunur. Onun fikrincə, daxili tələbatı tam ödəyə bilməyən yerli istehsal daha çox ixracata kökləndiyindən, ixrac daha sərfəli olduğundan bu, daxili bazarda qiymət artımına səbəb olan əsas faktora çevrilir: "Son zamanlar tərəvəz məhsullarının qiymətinin artımı bununla bağlıdır. Bu, bir daha onu deməyə əsas verir ki, daxili istehsalın sürətlə artırılması, məhsuldarlığın yüksəldilməsi prioritet olmalıdır. Kənd təsərrüfatı məhsullarını xarici ölkələrə ixrac etməzdən əvvəl daxili tələbat ödənilməlidir. Bu, birmənalıdır. Əgər balans düzgün qurulsa, daxili bazarlarda meyvə-tərəvəzlərin qiyməti bu qədər baha olmazdı. Balanslaşdırmanı isə Kənd Təsərrüfatı Nazirliyi aparmalıdır. Sahibkarlar arasında danışıq aparmaq olar ki, bir qisim istehsal etdiyi məhsulu ancaq daxili bazarlara, digərləri isə xarici bazarlara satsın.

Amma bizdə əkilən məhsulların böyük əksəriyyəti Rusiya bazarlarına gedir və daxili tələbat ödənmir. Nəticədə Azərbaycanda kənd təsərrüfatı məhsullarının bazarlarda bahalaşmasına şahid oluruq.

Fermerlər il ərzində əziyyət çəkib yetişdirdiyi məhsulu qapısında və nisbətən baha qiymətə Rusiya bazarlarına satmağa üstünlük verir. Bu sahədə daxili bazarlarda xaotik durum hökm sürür. Gilası istehsalçıdan 1 manata alıb Bakıda 4-5 manata satırlar. Qazanan dəllal olur. Ona görə də kəndlilər öz məhsullarını 3 manata Rusiyaya ixrac etməyə üstünlük verir. Rusiya bazarlarına yaramayan aşağı keyfiyyətli məhsulları isə daxili bazarlara göndərirlər. Hansı ki, alverçilər kəndlilərdən ucuz qiymətə aldığı həmin aşağı keyfiyyətli məhsulu da gətirib Bakıda 10 qat bahasına satır".



*"Məsuliyyət birbaşa Kənd Təsərrüfatı Nazirliyinin üzərindədir. Qurum bu istiqamətdə düzgün siyasət yeridə bilmədiyi üçün fermerlər keyfiyyətli məhsullarımızı xaricə satır, biz də İranın, Pakistanın gmo tərəvəzlərini yeyirik"*

**Ekspert hesab edir ki, sahibkarlar qarşısında cəlbedici təkliflər irəli sürmək lazımdır ki, onlar istehsal etdikləri məhsulları daxili bazara çıxarmaqda maraqlı olsunlar:** "İnsanlar meyvə-tərəvəzlərin baha olmasından şikayətlənir. Kəndlilər, fermer isə məhsulun yetişdirilməsi üçün çəkilən maya dəyəri artıb. Dövlət daxili tələbat üçün nəzərdə tutulan kənd təsərrüfatı məhsullarını istehsal edən sahibkarları üçün güzəştləri, eyni zamanda subsidiyaların məbləğini artırmalıdır. Bu cür danışıqların aparılması üçün də fermerlərlə, sahibkarlarla aidiyyəti qurum bir masa arxasında oturub ortaq məxrəcə gəlməlidir. Onu deyim ki, bu sahədə araşdırma aparıb hesabat xarakterli yazılar təqdim edən iqtisadi institutların fəaliyyəti də yetəri qədər hiss olunmur. Bu sahədə yaşanan mövcud problemlərin araşdırılması və sorğu keçirərək yekun nəticələrin hesabat formasında toplanması onların öhdəliyindədir. Amma bu sahədə heç bir irəliləyiş hiss olunmur. İnsanlar daha çox mediada ekspert kimi çıxış edən iqtisadçılara inanır, onların araşdırmalarını oxuyur. Bu baxımdan KTN həmin ekspertlərlə əməkdaşlıq etməli, onların araşdırmalarından, təkliflərindən yararlanmalıdır.

Növbəti mərhələdə isə ekspertlərin verdiyi proqnozlar ciddiyə alınmalı, çıxış yolu üçün onların təklifləri üzərində real addımlar atılmalıdır. Qurum kənd təsərrüfatı sahəsini dirçəltmək üçün xarici mütəxəssislərlə işləməyə üstünlük verir. Halbuki, onları maraqlandıran sadəcə işin maddi tərəfidir. Heç bir əcnəbi Azərbaycan iqtisadiyyatının, aqrar sektorunun inkişafı üçün canla-başla iş görmür. Amma yerli mütəxəssislərimiz milli maraqlar naminə öz ölkəsinin adının inkişaf etmiş ölkələr sırasında çəkilməsində maraqlı olur. Əgər yerli mütəxəssislərin bilgi səviyyəsi müasir standartlarla uyğunlaşmırsa, onları xaricə təkmilləşdirmə kurslarına göndərməklə çatışmazlıqları aradan qaldıra bilərlər".

**"Sağlam Cəmiyyət" Hərəkatının rəhbəri Elçin Bayramlı isə deyib ki, son dövrlərdə Azərbaycandan Rusiyaya və digər ölkələrə ixrac edilən meyvə-tərəvəzlərin həcmində obyektiv səbəblərdən azalmalar hiss olunur. Bu səbəbdən yerli bazarlarda tərəvəzlərin qiyməti ötən illərlə müqayisədə xeyli aşağıdı. Amma Rusiyaya ixrac artdıqca daxili bazarda qiymət artacaq:** "Ona görə də kənd təsərrüfatı məhsullarının xaricə ixracı ilə bağlı müəyyən bir balanslaşma olmalıdır. Kənd Təsərrüfatı Nazirliyinin institutları ümumi hesablama aparmalıdır ki, ölkədə istehsal olunan kənd təsərrüfatı məhsullarından yerli tələbatı ödəyəcək qədəri saxlanılmalı, geri qalanı isə müxtəlif ölkələrə ixrac olunmalıdır. Hesab edirəm ki, ölkənin daxili tələbatı məhz yerli məhsulların hesabına ödənilməlidir. Keyfiyyətli meyvə və tərəvəzlərimiz mövsümi aylarda xarici ölkələrə satılır deyə biz ilboyu ucuz, gmo tərəvəzləri alıb istifadə etməli oluruq. Bunun məsuliyyəti isə birbaşa Kənd Təsərrüfatı Nazirliyinin üzərindədir. Qurum bu istiqamətdə düzgün siyasət yeridə bilmədiyi üçün fermerlər keyfiyyətli məhsullarımızı xaricə satır, biz də İranın, Pakistanın gmo tərəvəzlərini yeyirik. Özü də təkcə kartofda deyil, demək olar ki, bütün meyvə-tərəvəz, paxlalılar, süd məhsulları belədir. Müxtəlif qanunlarla ölkəmizdə GMO məhsulların istehsalı, satışı, idxalı qadağan edilsə də, bu qanunlara məhəl qoyan yoxdur. Nəticədə bazar-dükan xarici və GMO məhsullarla dolur. Yerli təbii məhsullar isə getdikcə sıradan çıxır". E.Bayramlının sözlərinə görə, gedib hansısa bir fermerə, sahibkara konkret olaraq sən məhsulunu ixrac etmə, ancaq daxili bazara sat demək də düzgün deyil: "Bu sahədə mütləq ki, sistemli proqramlar olmalıdır. Kəndlinin əkin-biçin işlərinin planlaşması üçün tövsiyələrə ehtiyacı var. Hesab edirəm ki, bunların bütövlükdə həyata keçirilməsi kənd təsərrüfatının inkişafına gətirib çıxara bilər".

**Şəymən**

**Təsisçi və baş redaktor: Akif Aşırlı**
**Baş redaktorun ı müavini: Yusif Nəzərli**
**Redaktor: Ayyət Əhməd**

**Reportyorlar qrupu:**
**Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Kənan Eynuroğlu, Günəş Mərd, Aygün Tahir**

**Texniki heyət:**
**Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova**

**Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur**

**Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb.**
**Lisenziya: 535**
**www.sherg.az**
**e-mail: sherq-1996@mail.ru**

**Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.**
**Telefon: 447-32-41**
**538-44-50, internet 538-44-15,**
**İndeks: AZ1073**

**Hesab nömrəsi: "Kapitalbank"ın ASC 1 saylı Nəsimi filialı 9900003611**
**SWIFT BIK AII-BAZ2X h/h**
**AZ17AIIB38070019441100466111**
**Kod 200112 M/H**
**AZ37NABZ01350100000000001944**
**VÖEN 1300414651 İndeks: 0330 Tirajı: 2550 Sifariş: 1775**



## Bələdiyyə başqanı timsahla evləndi

### Sədr gəlinlik geyinmiş timsahı qucağına alaraq küçə-küçə gəzdirib

**Meksikanın kiçik bir balıqçı şəhərinin bələdiyyə sədri Viktor Hüqo Sousa timsahla evlənib. Toy qəsəbədə rəngarəng görüntülərə səbəb olsa da, sosial mediada da geniş əks-səda doğurub.**

"Sherg.az" Hürriyyet-ə istinadən xəbər verir ki, bu həmin şəhərin adəti sayılır.

Yerli insanlar "Kiçik Şahzadə" adlanan yeddi yaşlı timsahı təbiəti təmsil edən tanrı kimi görürlər. Timsahın yerli liderlə evlənməsi insanların ilahi ilə birləşməsini simvollaşdırır. Hər il olduğu kimi, sədr gəlinlik geyinmiş timsahı qucağına alaraq küçə-küçə gəzdirib. Mərasimə qatılan sakinlər ənənəvi musiqinin sədaları altında rəqs edib, bəylə gəlini papaqlarını çıxararaq salamlayıblar. Hər ehtimala qarşı ağzı bağlanılan timsah gəlinliklə yanaşı, rəngli aksesuarlarla da bəzədilib. Sədr Sousa timsahın möhkəm bağlanmış ağzından dəfələrlə öpərək "Təbiətdən çaylarımıza kifayət qədər yağış, kifayət qədər qida və balıq verməsini xahiş edirik" deyib. Sözügedən ritual Oaxaca əyalətində yaşayan Chontal və Huave qəbilələrinə aiddir və bolluq və məhsuldarlıq gətirmək üçün bu gün də davam etdirilir. Meksikanın cənubunda yerləşən Oaxaca kasıb bölgə olmasına baxmayaraq mədəni zənginliyi ilə diqqət çəkir. Yerli insanlar illərdir öz dinlərinə, adət-ənənələrinə sadiq qalıblar.

**Çimnaz Şahlar**

## 349 kiloqram çəkisi olan kişi öldü

### 37 yaşlı adam xəstəxanada müalicəsi üçün lazım olan dörd çarpayı tuturdu




**İngiltərənin ən kök adamı sayılan və 349 kiloqram çəkisi olan kişi 37 yaşında dünyasını dəyişib.**

Bu barədə "The Sun" məlumat yayıb.

Metyu Krouford 18 ayını Nottingemşir ştatının Satton-in-Eşfild şəhərindəki xəstəxanada keçirtdiyi və gücləndirilmiş çarpayılara yerləşdirildiyi zaman məşhurlaşdı. Bu, Milli Səhiyyə Xidmətinə həftədə yeddi min funt-sterlinqə başa gəlib. Krouford xəstəxanada lazım olduğundan daha çox qaldı, çünki ona evdə qulluq göstərmək mümkün deyildi. Eyni zamanda, xəstələrin müalicəsi üçün lazım olan dörd çarpayı tuturdu. Müalicəsi zamanı Krouford pizza və Çin yeməkləri sifariş edib. Onun xəstəxana çarpayısında şampan şüşəsi ilə poza verdiyi fotolar var. (milli.az) Krouford evdən çıxanda arıqlama qrupuna qatılıb, lakin arıqlaya bilib-bilmədiyi məlum deyil. Onun işsizlik müavinətini 65 düymlük televizora və müxtəlif idman və əyləncə abunələrinə xərclədiyi bildirilir. Bundan əlavə, həmin şəxsin ona baxan 4 tibb bacısını da təhqir etdiyi iddia edilir. Kroufordun dostları onun ötən həftə yenidən xəstəxanada olduğunu və sepsis və orqan çatışmazlığından dünyasını dəyişdiyini bildirdi.

## Aktrisa özündən 17 yaş böyük prodüserə ərə getdi



**Amerikalı məşhur aktrisa Aleksandra Daddario 53 yaşlı kinoprodüser sevgilisi Endryu Forma ərə gedib.**

**Axşam.az xəbər verir ki, cütlük Yeni Orleanda nikah bağlayıb. 36 yaşlı Aleksandra özəl günündən olan fotoları sosial media hesabında izləyiciləri ilə bölüşüb.**

**Qeyd edək ki, cütlük iki ildir münasibətdədir. Onlar ötən ilin sonu nişanlandıqlarını açıqlamışdılar.**

## Stressdən azad yaşamaq şərtdir

### 102 yaşlı əkiz bacılar sağlamlığın sirrini açdı



**Böyük Britaniyada əkiz bacılar Edit Dambiton və Dorkas Tobin 102 yaşlarını qeyd edərək uzunömürlülüyün sirrini açıblar.**

**Medicina.az xəbər verir ki, bacılar 1920-ci ildə 45 dəqiqə fərqlə anadan olublar. Onların birlikdə beş övladı, doqquz nəvəsi və 22 nəticəsi var. Dambitonun 68 yaşlı qızı Kristin Bemand bildirib ki, ailə anası və xalasının ad günlərini qeyd etmək üçün bir yerə toplaşıb. "Bayram sakit və ailəvi oldu: pendirli sendviç yedilər və xatirələrini xatırladılar", - o deyib. Dambitonun dediyinə görə, o və bacısı həmişə təvazökar yaşadıqlarına və sərvət və rahatlıqlarını itirməkdən qorxmadıqları üçün bu yaşa qədər yaşaya biliblər. Onun fikrincə, bu, onları stressdən azad edib. O əlavə edib ki, hələ də həyatdan hər şeyi almağa çalışır və hər anından həzz alır. Tobin etiraf etdi ki, onun sirri fəaliyyətdə eniş-yoxuşlara baxmayaraq, yaşamağa davam etmək bacarığındadır. "Mənim kiçik bir istixanam var, bağçılıq edirəm və bu məni xoşbəxt edir", - o deyib.**

## Altıncı mərtəbədən yıxılan iki yaşlı uşaq sağ qaldı



**Rusiyanın Krasnoyarsk şəhərində iki yaşlı uşaq binanın altıncı mərtəbəsindəki mənzilin pəncərəsindən yıxılıb, ancaq sağ qalıb.**

**Oxu.az xəbər verir ki, sosial şəbəkələrdə hadisənin görüntüləri yayılıb.**

**Məlumata görə, kişi oğlu ilə yatmağa uzanıb. Uşaq ayılıb və mətbəxə keçib. Oradan açıq pəncərəyə çıxıb və yıxılıb.**



# Şəhərdən kəndə qaçdılar

### 1500 manatla bütün yaşamlarını qurdular

**Şəhər həyatından imtina edib təbiət qoynunda olmağı, sakit, təbii kənd yaşamını seçənlərin sayı getdikcə artır. Səbəblər şəhər həyatının bahalığı, səs-küy, rahatlığın olmaması, stresli yaşam tərzidir. Təbiət, sadə kənd həyatının insana rahatlıq, hüzur verdiyi isə şəksizdir. Bir məsələ var, o da əldə bəlli bir vəsaitin olması.**

Bir çox insan var ki, şəhərdəki evini, olan-olmaz nəyi varsa satıb kəndə "qaçır". Onlardan biri də istanbullu Sönməzoğlu ailəsidir. "Şərq" "Milliyet.com"a istinadən Sönməzoğlu ailəsinin şəhərdən kəndə köç etmələrinin hekayəsini təqdim edir. 37 yaşlı Filiz Sönməzoğlu 20 il AVM-də mağaza müdiri işləyib. 38 yaşlı Dəniz Sönməzoğlu isə incəsənətin müxtəlif növləri üzrə müəllimdir. Kəndə köçmək arzuları olub, lakin bunu təqaüd yaşına çatdıqda reallaşdırmağı düşünüblər, taki pandemiya başlayanadək. Pandemiya ailənin köç planının xeyli irəli çəkilməsinə səbəb olub. İstanbuldakı evlərini və əşyaları satıb Sakaryanın Altındərə kəndinə köç ediblər. Kəndə köçmək üçün 15 min TL pul xərcləməli olublar. İndi isə yaşadıqları təbiət qoynunda aylıq məsrəfləri yalnız 8-9 min TL təşkil edir. Yəni bizim pulla 800-900 manat. İşıq pulu, qaz pulu məsrəfləri yarı-yarıya düşüb. Filiz Sönməzoğlu deyir ki, ən böyük xəyalı övladlarının təbii yaşam içində, budağından meyvə, tağından tərəvəz toplaya biləcəkləri bir yerdə yaşamaları olub: "Yerli əhalinin meşədən hər cür qida, ərzaq - şabalıd, göbələk, meyvələr, tərəvəz, şəfalı otlar toplayıb satdığını gördükdə "biz də bu işləri görə bilərik" deyərək qolumuzu çırmayıb işə başladıq. Təbiət insana istədiyi hər nə varsa, təmənnasız verir. Yetər ki, ona zərər verməyəsən". Sönməzoğlu ailəsi həyətdə kiçik təsərrüfat qurub. Toyuqları yumurtlayır, tərəvəzi bostandan, meyvələri bağçadakı ağaclardan toplayırlar. F.Sönməzoğlu kəndlə şəhərin fərqini belə izah edib: "Kənddə özünüzü şəhərdəki kimi aparsanız, məsrəfləriniz böyüyəcək. Marketlərdə qiymətlər eynidir, istər şəhər olsun, istər kənd. Kənddə yaşayırsansa zəhmət çəkməlisən, əkib-becərməlisən, təsərrüfat saxlamalısan. Burda torpaqlar münbitdir, əkinçiliklə məşğul olmaq sərfəlidir. Fındıq bağçaları var. Toplayıb satmaq olur. İşlər çətindir, amma şəhər həyatı kimi yorucu və stresli deyil. Hər gün hansısa təbiət hadisəsinə şahidlik etmək insana xoşbəxtlik duyğusu yaşadır. Yaxşı ki, bura gəldik. Övladlarımız təbiət qoynunda böyüyəcək, torpağın qədrini biləcək".

*"Toyuqları yumurtlayır, tərəvəzi bostandan, meyvələri bağçadakı ağaclardan toplayırlar"*





**Məlahət Rzayeva**



## Avropada istilər rekord qırır

### Yaxın həftələrdə isə tufan, dolu, leysan yağışları və güclü küləklər gözlənilir

**Avropanın çox hissəsində şiddətli isti dalğası səbəbilə ötən iyun ayında Şimal Qütb Dairəsidən Şimali Afrikaya qədər temperatur rekordları qırılıb. Ötən çərşənbə günü Norveçin şimalındakı Banak şəhərində 32 dərəcə temperatur qeydə alınıb. "Şərq" NTV-yə istinadən xəbər verir ki, bu, Avropada Arktik Dairə daxilində qeydə alınan ən yüksək temperatur olub. Yüksək temperatur bütün Avropada qeydə alınıb.**

Fransanın qərbində iyunun ortalarında termometrlər 42 dərəcəni göstərib. "Meteo France" hava xidməti, ölkədə ən erkən isti dövrün yaşandığını bildirdi. Qurum qış və yazın qeyri-adi quraq keçməsinin meşə yanğınları riskini artırdığını bildirib.

Bazar ertəsi Polşada havanın temperaturu 35 dərəcəyə, Almaniyanın şərqində isə 37 dərəcəyə çatıb. İspaniyada hava istiliyinin 44 dərəcəyə çatması ilə son 20 ilin iyun ayının temperatur rekordu yenilənib. Cənubda Əndəlüs bölgəsinin iki əhəmiyyətli şəhəri Sevilla və Kordobada hava istiliyi 44 dərəcəyə yüksələrkən, Madrid, Toledo və Saraqosa kimi şəhərlərdə 40 dərəcəyə çatıb.

Digər tərəfdən, İtaliya isti dalğası səbəbiylə son illərin ən ciddi quraqlığı ilə üzləşib. Ölkədə 1800-cü illərdən bəri ən aşağı yağıntı qeydə alınıb. İtaliyanın ən uzun çayı olan Poda suyun səviyyəsi son 70 ilin ən aşağı səviyyəsinə düşüb. Bununla belə, Sloveniya və Xorvatiyada iyun ayı temperatur rekordları qırılıb, Bosniya və Herseqovinada isə keçən həftə termometrlər 41 dərəcəni göstərib. Digər tərəfdən yüksək temperatur Şimali Afrikaya da təsir edib. Tunisdə havanın temperaturu 48,7 dərəcəyə çataraq regionda yeni rekorda imza atıb.

Keçən ay həddindən artıq istilərlə yanaşı, Avropanın bir çox yerində fırtınalar da yaşanıb. Avstriyanın cənubunda fırtına daşqın və torpaq sürüşməsinə səbəb olub, bir nəfər ölüb, Karintiya bölgəsində evlər və yollar su altında qalıb.

Mütəxəssislər yaxın həftələrdə qitədə tufan, dolu, leysan yağışları və güclü külək kimi daha çox meteoroloji hadisələrin gözlənildiyini bildiriblər.

**Çimnaz Şahlar**

## Ayı çobanı parçaladı

### Güllə yarası alan vəhşi heyvan da ölüb





**Türkiyənin Ərzurum bölgəsində dəhşətli hadisə baş verib. "Şərq" "ahaber.com"a istinadən bildirir ki, Ərzurumun Olur Hükam kəndində çobanlıq edən 5 övlad atası Fatih İlhanın evə dönmədiyini görən ailəsi və qonşular polisə məlumat verib.**

Bölgədə əl fənərləri də dronun köməyi ilə axtarış başladan Ərzurum Olur əyalət Jandarma komandanlığı və fövqəladə hallar üzrə axtarış qrupu gecə yarısı Fatih İlhanın parçalanmış cəsədini dərədə tapıb. Çobanın cəsədindən bir qədər aralıda isə bəyaz ayı cəsədi də tapılıb. Ayının yara aldığı da təsbit edilib. Çobanın və ayının cəsədinin müayinəsi hadisənin necə baş verdiyini müəyyənləşdirib. Məlum olub ki, çoban dərədə ayıyla qarşılaşdıqda ona atəş açıb. Yaralı ayı daha da qəzəblənərək çobanın üzərinə hücum çəkib. Onu parçalayıb. Lakin ayı yaralı olduğundan hadisə yerindən çox uzaqlaşa bilməyib və bir qədər kənarda yıxılaraq ölüb. Çobanın bədəninin parçaları müvafiq paketin içinə toplanıb. Ərazi qayalıq bölgə olduğu üçün cəsəd çətinliklə aşağı endirilib. Helikopterə qoyularaq Olur Dövlət Xəstəxanasına aparılıb. Ayının da cəsədi dərədən çətinliklə çıxarılıb.

**Məlahət**

## Sel gəldi, yollar bağlandı

### Əlaqə kəsilən kəndə helikopterlə ərzaq yardımı edilib



**Türkiyənin Bartın bölgəsində leysan yağışından sonra baş verən sel nəticəsində nəqliyyatın kəsildiyi Kozcağız qəsəbəsinin Şarköy kəndinə Türkiyə Silahlı Qüvvələrinə (TSK) məxsus helikopterlə lazımi materiallar gətirilib.**

Vilayət daxilində 4 gündür təsirli olan leysan səbəbiylə meydana gələn seldə Kozcağız mahalına bağlı Şarköy kəndi Boğaziçi Mahallesi körpüsü uçub. Körpünün çökməsindən sonra Şarköy kəndi ilə nəqliyyat əlaqəsi kəsilib. Türkiyə Silahlı Qüvvələrinə məxsus helikopterlə kəndə ərzaq və ləvazimat gətirilib. Materiallar qruplar tərəfindən kənddəki ot sahəsinə helikopterdən boşaldılıb, daha sonra ərazidə gözləyən kənd sakinlərinə paylanıb.

**Turan**